HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 12 (652) ■ 3 aprel 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev: «Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması prioritet məsələdir»

*Aprelin 1-də Abşeron rayonunun Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllə istifadəyə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.*



Bildirilmişdir ki, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması hər zaman Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. 1993-cü ildən başlayaraq ulu öndər Heydər Əliyev bununla bağlı 81 fərman və sərəncam imzalamış, Nazirlər Kabineti 307 qərar vermiş, Milli Məclis 24 qanun qəbul etmişdir. 2003-2012-ci illərdə isə bu məqsədlə əlavə 49 fərman və sərəncam imzalanmışdır. Bu müddətdə iki dövlət proqramı və həmin dövlət proqramlarına edilən əlavələr təsdiq edilərək uğurla icra olunmuşdur.

2001-2012-ci illərdə 31 min ailə və ya 140 min nəfərdən çox qaçqın və məcburi köçkün üçün 77 qəsəbə, çoxmərtəbəli binalardan ibarət məhəllə və fərdi evlər tikilmişdir. Bu dövrdə 134 məktəb, 5 musiqi məktəbi, 48 uşaq bağçası, 51 tibb müəssisəsi, iki Olimpiya İdman Kompleksi, 37 rabitə evi inşa olunmuş, minlərlə kilometr uzunluğunda su, elektrik və qaz xətləri çəkilmişdir. Həmçinin, 1348 ailə və ya 6740 məcburi köçkün Maliyyə Nazirliyi tərəfindən ayrılan vəsait hesabına dövlət ehtiyacları ilə əlaqədar Abşeron rayonunun ərazisində tikilmiş yeni mənzillərə köçürülmüşdür. Dövlət büdcəsində nəzərdə tutulan investisiya xərcləri vəsaiti hesabına Axısxa türkləri üçün 352 evin inşası başa çatdırılmışdır və bu layihə 2013-cü ildə də davam etdiriləcəkdir.

Ümumilikdə, qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə 1993-2012-ci illərdə 5,4 milyard dollar vəsait xərclənmişdir. 2012-ci ildə Dövlət Neft Fondundan 300 milyon manat vəsait ayrılmışdır və bu da 2011-ci illə müqayisədə 2,2 dəfə, 2003-cü ilə nisbətən isə 15 dəfə çoxdur. 2013-cü ildə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllinə 590 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Dövlət Neft Fondundan ayrılacaq 300 milyon manat vəsait hesabına 4 min ailə, yəni 20 min nəfər məcburi köçkün üçün ümumi sahəsi 260 min kvadratmetr olan, bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə 8 qəsəbə və məhəllə salınacaqdır.

Sonra dövlətimizin başçısı Zəngilan Rayon İcra Hakimiyyətinin yeni inzibati binasında yaradılan şəraitlə maraqlanmışdır. Həmin gün Azərbaycan Prezidenti Zəngilan rayonundan məcburi köçkün Vəli Quliyevin mənzilində yaradılan şəraitlə də tanış olmuşdur. Məlumat verilmişdir ki, ailə üzvlərinin sayı beş nəfərdən ibarət olan Vəli Quliyevin mənzili üçotaqlıdır. Mənzildə ailənin rahatlığı üçün hər cür şərait vardır. Dövlətimizin başçısı çay süfrəsi ətrafında mənzilin sahibi ilə söhbət etmiş, ailə üzvlərini bu hadisə münasibətilə təbrik etmişdir: «Gözəl qəsəbədir, gözəl mənzildir. İşğaldan sonra köçkünləri yataqxanalara, çadır şəhərciklərinə köçürmüşlər. Uzun illər siz orada çətin, ağır şəraitdə yaşamısınız. Amma indi dövlətin imkanları genişlənir. Bu istiqamətdə məqsədyönlü şəkildə dövlət siyasəti aparılır. Ona görə bütün köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması prioritet məsələdir».

Yeni məhəllə ilə tanışlıq zamanı Prezident İlham Əliyevin diqqətinə çatdırılmışdır ki, bu kompleks qaçqınlar və məcburi köçkünlər üçün indiyədək salınmış sayca 78-ci yaşayış məntəqəsidir. Məhəllə Azərbaycan Prezidentinin 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı»na - Azərbaycan Respublikası Prezidentinin 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilən əlavələrin müvafiq bəndlərinə əsasən - inşa olunmuşdur. Yeni salınmış məhəlləyə Azərbaycan Dövlət Neft Akademiyasının tələbə şəhərciyində müvəqqəti məskunlaşmış 760 ailə və ya 3420 məcburi köçkün köçürüləcəkdir. Məcburi köçkünlərdən 460-ı Zəngilan, 66-sı Ağdam, 52-si Cəbrayıl, 40-ı Füzuli, 142-si isə Kəlbəcər, Laçın, Qubadlı, Şuşa, Xocavənd, Xocalı rayonlarındandır. Bildirilmişdir ki, 12 hektar sahəni əhatə edən yeni məhəllədə inşa edilmiş 760 evdən 90-ı birotaqlı, 490-ı ikiotaqlı, 170-i üçotaqlı, 10-u isə dördotaqlıdır. Məhəllədə 540 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, klub-icma mərkəzi, tibb məntəqəsi və s. tikilmiş, məhəllənin inşasına ötən ilin aprelində başlanılmış, tikinti işləri bu ilin martında tam başa çatdırılmışdır.

Azərbaycan Prezidenti məhəllədə salınmış 280 yerlik «Şəfəq» uşaq bağçası ilə də tanış olmuşdur. Bildirilmişdir ki, bağçanın ikimərtəbəli binası zəruri avadanlıqla təchiz olunmuşdur. Burada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınmışdır. Bağçanın musiqi zalında da hər cür şərait vardır.

Daha sonra Prezident İlham Əliyev 540 şagird yerlik Zəngilan rayon 33 nömrəli tam orta məktəbə gəlmişdir. Məktəblə tanışlıq zamanı bildirilmişdir ki, yüksək şəraiti, müasir təlim avadanlığı ilə diqqəti cəlb edən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyev məktəbin kompüter otağında, idman zalında yaradılmış şəraitlə tanış olmuş, Zəngilan rayonunun «Araz» idman klubu idmançılarının nümunəvi çıxışlarına baxmışdır.

## Dostluq və əməkdaşlığımız uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Səudiyyə Ərəbistanı Krallığının Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir Əs-Səvvatın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlıq və dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın ölkələrimizin sərhəd xidmətləri arasında əlaqələrin inkişafına da müsbət təsir edəcəyinə əminliyini bildirmişdir. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafında siyasi və iqtisadi əlaqələrlə yanaşı, təhlükəsizlik məsələlərinin də mühüm əhəmiyyət daşıdığını qeyd etmişdir. Hər bir ölkənin təhlükəsizliyinin təmin olunmasında sərhəd xidmətinin önəmini qeyd edən dövlətimizin başçısı ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirmişdir.

Paytaxtımızda gedən böyük inkişaf proseslərinin şahidi olduqlarını deyən Səudiyyə Ərəbistanı Krallığının Sərhəd Xidmətinin baş direktoru Zumeyyim bin Cuveybir Əs-Səvvat dost Azərbaycanın son illər əldə etdiyi yüksək nailiyyətlərə sevindiklərini vurğulamışdır. Zumeyyim bin Cuveybir Əs-Səvvat ölkələrimizin sərhəd xidmətləri arasında əməkdaşlığın yaxın gələcəkdə inkişaf etdiriləcəyinə və bu sahədə qarşılıqlı əlaqələrin Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirmişdir.

## Paytaxtın infrastrukturu gündən-günə müasirləşir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 29-da Bakının Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında inşa edilən yeraltı avtomobil dayanacağında, yerüstü park, bağ və fəvvarələr kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşlar. Dövlətimizin başçısının tapşırıqlarına əsasən Bakı şəhərinin infrastrukturunun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq davam etdirilir. Bakı şəhərində park və xiyabanlar müasir şəkildə yenidən qurulur, yaşıllıq zolaqları salınır, yeni istirahət guşələri yaradılır. Paytaxtın Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında yeraltı avtomobil dayanacağının üstündə müasir park kompleksinin inşa olunması şəhərimizin simasının daha da yenilənməsi və paytaxt sakinlərinin istirahəti baxımından olduqca əhəmiyyətlidir. Dövlətimizin başçısı avtomobili özü idarə edərək əvvəlcə yeraltı avtomobil dayanacağına gəlmişdir. Bu dayanacaq avtomobil tutumuna görə dünyada ən böyük dayanacaqlardan biridir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeraltı avtomobil dayanacağından keçib yerüstü park kompleksinə gəlmişlər.

Yeni salınan bu park kompleksi şəhərin içərisində ən böyük parkdır. Park kompleksinin layihəsi barədə Prezident İlham Əliyevə məlumat verilərək bildirilmişdir ki, 7 hektar ərazisi olan parkın 29 min kvadratmetrlik sahəsinə qranit plitə döşənəcəkdir. Hazırda 20 min kvadratmetrlik sahəyə qranit plitələr döşənmişdir. Park kompleksinin 6 min kvadratmetrlik sahəsinə asfalt örtük çəkiləcəkdir. Kompleksin 35 min kvadratmetrlik ərazisində yaşıllıq zolaqları salınacaqdır. Həmin əraziyə 35 min kubmetr əkin torpağının töküldüyü bildirilmişdir. Burada 2000-ə yaxın ağac, 10 minə yaxın isə bəzək kolu, çoxlu sayda gül və çiçək əkiləcəyi, ərazinin bütünlüklə yaşıl otlarla örtüləcəyi qeyd olunmuşdur.

Dövlətimizin başçısı paytaxtın Füzuli küçəsi ilə Mirzağa Əliyev küçəsi arasında salınan park kompleksində aparılan inşaat işləri ilə bağlı müvafiq tövsiyələrini vermişdir.

# Tarix və mədəniyyət abidələrinə dövlət səviyyəsində diqqət və qayğı daim gündəmdədir

Martın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Suraxanı rayonu ərazisindəki «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunda aparılan bərpa və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur. Dövlətimizin başçısına və xanımına məlumat verilmişdir ki, ölkəmizdə milli mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm layihələr həyata keçirilir. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən tarix və mədəniyyət abidələrinə dövlət səviyyəsində diqqət və qayğı gündən-günə artır. Dövlətimizin başçısının bununla bağlı imzaladığı fərman və sərəncamlar, aparılan məqsədyönlü siyasət və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihələr nəticəsində bir sıra abidələrimizin UNESCO-nun mədəni irs siyahısına daxil edilməsi, qədim tariximizi yaşadan məbədlərin təmir və bərpası, bölgələrdə aparılan genişmiqyaslı arxeoloji ekspedisiyalar bunun ən yaxşı göstəricisidir.

Azərbaycanın maddi mədəniyyət abidələri sırasında Bakının Suraxanı rayonunda yerləşən, XVII-XVIII əsrlərə aid atəşpərəst məbədinin qalıqları üzərində inşa olunmuş və UNESCO-nun «Dünya irsinin ilkin siyahısı»na daxil edilmiş «Atəşgah məbədi» Dövlət Tarix-Memarlıq Qoruğunun özünəməxsus yeri vardır. Qoruqda 2009-cu il ilin iyulundan ərazinin mühafizəsi və maddi-texniki təminatın gücləndirilməsinə başlanılmış, məbəd və məbədətrafı ərazilərin abadlaşdırılması həyata keçirilmişdir.

Qeyd olunmuşdur ki, qoruğun sahəsi 4,2 min kvadratmetrdən 15 min kvadratmetrə qədər genişləndirilmişdir. Sahəsi iki min kvadratmetrdən artıq olan əsas bina xüsusi memarlıq üslubunda inşa olunmuşdur. Məbədlə həmahəng inşa olunan əsas binada idarə, dəmirçi kürəsi, dəmirçi emalatxanası, mis və çini qablar, taxta üzərində oyma, xalça, kəlağayı və həsir toxuma emalatxanaları, suvenirlər, rəsm qalereyası mövcuddur. Xüsusi memarlıq üslubunda yaradılan muzeydə Bakı şəhəri və Abşeron rayonu ərazisində vaxtilə mövcud olan qədim yaşayış binalarını və abidələri əks etdirən guşələr yaradılmışdır. Burada əcdadlarımızın istifadə etdikləri məişət əşyaları və incəsənət nümunələri nümayiş olunur. Muğam evində isə buraya gələn ziyarətçilərin istirahətinin yüksək səviyyədə təşkili məqsədilə ayrıca guşə yaradılmışdır. Burada Azərbaycan muğamının təbliği məqsədilə müxtəlif konsertlərin təşkili də nəzərdə tutulmuşdur.

Bildirilmişdir ki, 2012-ci ilin sentyabrından başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə məbədətrafı ərazilərin abadlaşdırılması, yardımçı binaların tikintisi işləri sürətlə həyata keçirilmiş, yeddi ay ərzində başa çatdırılmışdır. Burada kütləvi tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmış, müasir işıqlandırma sistemi qurulmuşdur.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Atəşgah məbədində görülən işlərlə tanış olmuşlar. Diqqətə çatdırılmışdır ki, Atəşgah məbədi XVII-XVIII əsrlərdə təbii qazların çıxdığı əbədi, sönməz alovların yerində inşa edilmiş od məbədidir. İndiki ibadətgah da atəşpərəstlərin - zərdüştlərin qədim məbədlərinin yerində tikilmişdir. Bu məbədlər təqribən II-III əsrlərdə inşa edilmişdir.

Dövlətimizin başçısı Atəşgah məbədinin XIX əsrdə çəkilən şəkillərini, bərpadan əvvəlki və sonrakı görüntülərini əks etdirən fotostendlərə, qoruq ərazisində yaxın gələcəkdə görüləcək işlərin eskiz layihələrinə baxmışdır. Görülmüş işlərdən razılığını bildirən Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

2 | Azərbaycan MDB-də ən sabit maliyyə vəziyyətinə malik ölkədir

3 | «Fitch Raytings» Azərbaycanın investisiya reytinqini qaldıra bilər

4 | «ASAN xidmət» özünü doğruldur

5 | İqtisadi əməkdaşlıq üçün səmərəli platforma

# Yeni yaradılan şura fəaliyyətə başladı

***Vergilər Nazirliyi yanında Tədris-Metodiki Şuranın ilk iclası keçirilmişdir. İclasda çıxış edən vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov Tədris-Metodiki Şuranın nazirliyin tədris, təlim, elmi tədqiqatlar sahəsində işinin səmərəliliyinin yüksəldilməsi, ümumi tədris metodologiyasının və onun inkişafının təmin edilməsi, təlim və tədris planlarının, proqramlarının formalaşdırılması və hazırlanması, yeni təlim metodlarının, habelə elmi tədqiqat fəaliyyətinin prioritet istiqamətlərinin müəyyən edilməsi məqsədilə yaradıldığını bildirmişdir.***

Yarandığı 10 ildən artıq müddət ərzində Tədris Mərkəzi tərəfindən Vergilər Nazirliyinin daxili tələbatını ödəyəcək tədris sisteminin inkişafı istiqamətində uğurlu nailiyyətlər əldə olunmuş, təhsilin yeni metodları tətbiq edilmişdir. Nazir müavininin sözlərinə görə, tədris proqramları hazırlanarkən strukturlar arasında işlər əlaqələndirilmiş, bəzi sahələr üzrə beynəlxalq təcrübə öyrənilmiş, kurslar təşkil edilmişdir: «Vergi auditi, vergi cinayətlərinin ibtidai araşdırılması, kameral vergi yoxlaması sahəsində sırf inzibati metodlarla nəyəsə nail olmaq çətinləşir. Artıq nəzəri biliklərin praktikada tətbiqi önə çıxır. Əldə edilən biliklərin tərübədə tətbiqi isə həvəs və bacarıq tələb edir. Buna görə də yeni yaradılan Tədris-Metodiki Şura, ilk növbədə, əldə etdikləri bilikləri təcrübədə tətbiq etmək bacarığına malik kadrların yetişdirilməsi istiqamətində əlindən gələni etməlidir». Çıxışının sonunda nazir müavini tədbir iştirakçılarına Şuranın işində aktiv iştirak etməyi, işlərinə məsuliyyətlə yanaşmağı tövsiyə etmiş və gələcək işlərində uğurlar arzulamışdır.

Sonra vergilər nazirinin müşaviri Ələkbər Məmmədov Tədris-Metodiki Şuranın fəaliyyəti, Vergilər Nazirliyi sistemində tədris və təlim sahəsində mövcud vəziyyətlə bağlı təqdimatla çıxış etmişdir. Tədris tələbatlarının müəyyən edilməsi üçün səmərəli bir metodikanın işlənməsi və onun əsasında növbəti illər üçün tədris proqramlarının, tədris-mövzu planlarının və tədris materiallarının hazırlanması məsələlərinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan Ə.Məmmədov Şuranın yaradılması ilə Vergilər Nazirliyinin təlim və tədris sistemində mövcud pərakəndəliyin aradan qaldırılacağını, tədris prosesinin təşkili və idarə olunmasına vahid yanaşmanın, vergi sistemində elmi konsepsiyalara əsaslanan layihələrin hazırlanması və reallaşdırılmasının təmin olunacağını bildirmişdir.

Qeyd olunmuşdur ki, vergi orqanı əməkdaşları üçün tədrisin kifayətlilik göstəricisi əsas amillərdəndir: «İl ərzində bir orta statistik vergi işçisinə düşən optimal tədris günlərinin sayı hesab olunan bu göstərici 2008-ci ildə 3,7; 2009-cu ildə 4,9; 2010-cu ildə 6; 2011-cu ildə 3,2; 2012-cu ildə 3,7 adam-gün təşkil etmişdir. Avropadaxili Vergi Administrasiyaları Təşkilatına üzv olan ölkələrdə standart 5 adam-gün qəbul edilmişdir».

Bildirilmişdir ki, tədris kurslarının səmərəliliyinin təmin olunması nöqteyi-nəzərindən dinləyicilərin zəif cəhətlərinin dəqiqləşdirilməsi üçün onların peşə hazırlığı və bilik səviyyəsinin ilkin qiymətləndirilməsi, tədris kursunun sonunda isə zəruri tövsiyələrin verilməsi məqsədilə son qiymətləndirmə aparılır. 2009-cu ildən başlayaraq vergi orqanlarının əməkdaşları üçün ingilis dili kursları təşkil edilmişdir.

Perspektivlərə gəldikdə, Tədris-Metodiki Şuranın işlək quruma çevrilməsi, Tədris Mərkəzinin strateji inkişaf planının hazırlanması, tədris prosesində informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə olunması məqsədilə e-learning sistemi üçün proqram təminatının hazırlanması və tətbiqi, yeni təlim alətlərindən və metodlarından istifadənini genişləndirilməsi və s. nəzərdə tutulan məsələlər sırasındadır.

**A.İBRAHİMOVA**

# «Vergi dostları»na sertifikatlar verilmişdir

***Martın 28-də Sumqayıt şəhərində yerləşən 2 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında keçirilmiş tədbirdə ümumtəhsil məktəblərində çalışan 54 nəfər müəllimə «Vergi dostu» sertifikatı, eləcə də kompüterlər və vergi sahəsində maarifləndirici materiallar təqdim edilmişdir. Tədbirdə Sumqayıt, Abşeron, Siyəzən, Xızı rayonlarının icra hakimiyyətlərinin nümayəndələri iştirak etmişlər.***




Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov Vergilər Nazirliyi qarşısında duran ən mühüm vəzifələrdən birinin vergi ödəyiciləri arasında maarifləndirmə, məlumatlandırma, təbliğat işini genişləndirmək, eləcə də cəmiyyətdə vergi əxlaqı və mədəniyyətini aşılamaq olduğunu demişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də «Vergi dostları» layihəsidir. Layihəyə vergi orqanlarının və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi ərazilər istisna olmaqla, respublikanın kənd və qəsəbələrini əhatə edən orta məktəb müəllimləri qoşulub. İndiyədək Xaçmaz, Qax, Balakən, Zaqatala rayonlarında fəaliyyət göstərən 138 nəfər «vergi dostu»na lazımi təlim keçilib və sertifikatlar verilib.

Layihənin könüllü olduğunu deyən Ə.Məmmədov «Vergi dostları» şəbəkəsinə müəllimlərin seçilməsinin onların ictimaiyyət arasında daha nüfuzlu olmaları və gənc nəsil arasında təbliğat işini apara biləcək ən fəal qrup olmaları ilə bağlı olduğunu bildirmişdir. Layihə ölkə üzrə 2 mindən artıq məktəbi əhatə edəcək.

Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov bildirmişdir ki, 10 il öncə Vergilər Nazirliyində tamamilə yeni bir siyasət istiqaməti müəyyən edilmişdir: «Biz çalışırıq ki, vergi ödəyiciləri vergiləri könüllü olaraq ödəsinlər. Bunun üçün, ilk növbədə, vergi ödəyicilərinin məlumatlandırılması lazımdır. Vergilər Nazirliyinin internet resurslarının, «195» Telefon-məlumat mərkəzinin, «Facebook» səhifəsinin yaradılması, habelə həyata keçirdiyimiz digər layihələr bu zərirətdən irəli gəlmişdir».

E.Məmmədov «Vergi dostları» layihəsinin gənc nəslin biliklərinin artırılmasında, vergi mədəniyyətinin formalaşmasında xüsusi rolu olduğunu, bu layihənin əhatə dairəsinin genişlənəcəyinə ümid etdiyini vurğulamışdır.

Siyəzən rayon Yanıqələz kənd ümumorta məktəbini təmsil edən Cəfər Bağırov bu layihənin yenilik olduğunu qeyd etmişdir: «Hər zaman yeniliklər edən Vergilər Nazirliyinin bu layihəsi gələcəkdə vətəndaşların vergidən yayınmasının qarşısının alınmasına yardımçı olacaq. Müəllimlər təkcə təhsil sahəsində deyil, digər sahələrdə də cəmiyyətin fəal təbəqəsini təşkil edirlər. Hesab edirəm ki, onlar bu layihədə də layiqincə fəallıq göstərəcəklər».

Xızı rayon Xələnc kənd əsas məktəbin direktoru Fəqət Bəşirov «Vergi dostları» layihəsinə həvəslə qoşulduqlarını bildirmişdir: «Kəndimizdə layihənin uğurla həyata keçirilməsi üçün əməyimizi əsirgəməyəcəyik. Çalışacağıq ki, yaşından asılı olmayaraq hər kəsin vergi sahəsində məlumatlandırılması təmin edilsin. Əhali verginin ölkə iqtisadiyyatında nə qədər önəmli olduğunu bilməlidir.

Məktəbimiz Təhsil Nazirliyi və Vergilər Nazirliyi tərəfindən çap olunan dərsliklərlə təmin olunub. Həmin dərsliklər vasitəsilə əlavə məşğələlərdə vergi ilə bağlı anlayışları uşaqlara başa salır, gələcəyin şüurlu vergi ödəyicilərinin yetişdirilməsinə çalışırıq».

Xatırladaq ki, «Vergi dostları» vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini gücləndirmək, vətəndaşlarda yüksək vergi mədəniyyəti formalaşdırmaq və bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilir.

**AYTƏN**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

*Qəzetimizin bu sayından etibarən istintaqı başa çatmış və məhkəmə tərəfindən hökm çıxarılmış cinayət işləri haqqında oxucularımıza məlumat verəcəyik. Budəfəki yazımız vergidən yayınmaya görə artıq ikinci dəfə cinayət məsuliyyətinə cəlb olunmuş Abbasov Anar Xasay oğlunun qanunazidd fəaliyyəti və nəticədə külli miqdarda vəsaitin dovlət büdcəsindən yayındırılması haqdadır.*

Bakı Şəhər Vergilər Departamentində vergi ödəyicisi kimi qeydiyyatda olan fiziki şəxs Anar Abbasovun fəaliyyəti üzrə aparılmış kameral vergi yoxlaması nəticəsində xeyli miqdarda vergi məbləğinin dövlət büdcəsindən yayındırılması aşkar edilmişdir. Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılmış istintaq zamanı müəyyən edilmişdir ki, A.Abbasov icarəyə götürdüyü «Beşmərtəbə pub» adlı kafedə 2009-cu ildə içtimai-iaşə xidməti sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olarkən Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərini pozaraq, vergi orqanına ƏDV bəyannaməsini təqdim etməmişdir. Ödəyici ƏDV bəyannamələrində 2009-cu ilin fevral ayı üzrə əlavə dəyər vergisinin məbləğini 7466,83 manat, mart ayı üzrə 8629,34 manat, may ayı üzrə 8629,34 manat, iyun ayı üzrə 5258,04 manat göstərməli olduğu halda heç bir bəyannamə verməmiş, əksinə, 2011-ci ildə vergi orqanına ƏDV-yə cəlb olunan dövriyyəsinin olmadığı barədə arayış təqdim etmişdir. Bununla da vergi ödəyicisi gəlir və xərcləri barədə bilərəkdən təhrif olunmuş məlumatları öz hesabatlarına daxil etmək yolu ilə ümumilikdə 29983,55 manat məbləğində ƏDV-ni və cari bəyannamə ilə hesabladığı 366 manat məbləğində ödəmə mənbəyində tutulan vergini dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

İstintaq zamanı müəyyən edilmiş hallar iş materialları, təqsirləndirilən şəxsin etirafı və şahid ifadələri, həmçinin ekspertiza rəyi və s. sübutlarla təsdiq olunmuşdur. Təqsirləndirilən şəxs qismində dindirilmiş A.Abbasov ona elan edilmiş ittihamla razılaşmış və özünü təqsirli bilərək 2008-ci ilin dekabr ayında Bayram Hacızadə ilə icarə müqaviləsi bağlayaraq «Beşmərtəbə pub» kafesini icarəyə götürdükdən sonra vergi orqanında uçota dayandığını bildirmişdir. Həmin kafedə vergi orqanı tərəfindən onun iştirakı ilə aparılan xronometraj müşahidə zamanı cəmi dövriyyənin 51095,60 manat, orta günlük satış dövriyyəsinin isə 1824,84 manat müəyyən edildiyini, xronometraj müşahidəsinin nəticələri ilə tam razı olduğu üçün təkrarən xronometraj keçirilməsi barədə vergi orqanına müraciət etmədiyini qeyd etmişdir. A.Abbasov kafedə olan xidmət üzrə ödənilən məbləğlərin onun göstərişinə əsasən həmin ilin aprel ayı üzrə nəzarət-kassa aparatına vurulmadığını, eləcə də işlətdiyi kafedə ərzaq və qida məhsullarını müxtəlif bazar və topdansatış obyektlərindən sənədləşmə aparmadan aldığını etiraf etmişdir.

İş üzrə şahid qismində dindirilən şəxslər də istintaqla müəyyənləşmiş faktları təsdiq etmiş, ifadələrində A.Abbasovun vergidənyayınma hallarına yol verdiyini bildirmişlər.

Cinayət işi üzrə toplanmış sübutlar əsasında A.Abbasov təqsirləndirilən şəxs qismində cəlb edilərək ona Azərbaycan Respublikası CM-in 213.1-ci maddəsi ilə ittiham (xeyli miqdarda vergidən yayınma) elan olunmuş və barəsində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçilmişdir. Cinayət işi üzrə ittiham aktı respublika Baş Prokurorluğunda təsdiq edilərək baxılması üçün məhkəməyə göndərilmişdir.

Yasamal Rayon Məhkəməsinin 29 dekabr 2012-ci il tarixli hökmü ilə Anar Abbasov Azərbaycan Respublikası CM-in 213.1-ci maddəsi ilə təqsirli bilinərək 3 il müddətinə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilmişdir. Eyni zamanda, təqsirləndirilən şəxs, hər ay qazancının 20%-i dövlət nəfinə tutulmaqla, 2 il müddətinə islah işləri cəzasına məhkum edilmişdir.

**Arzu İBRAHİMOVA**

# Azərbaycan MDB-də ən sabit maliyyə vəziyyətinə malik ölkədir

*Müstəqil Dövlətlər Birliyi (MDB) Statistika Komitəsinin bu günlərdə çapdan çıxan «Müstəqil Dövlətlər Birliyi ölkələri 2000-2012-ci illərdə» adlı iqtisadi nəşrində quruma üzv ölkələrin makroiqtisadi inkişaf göstəriciləri əks olunub.*

Nəşri hazırlayan ekspertlər son 12 ildə MDB ölkələrinin sənaye, kənd təsərrüfatı, maliyyə, bank, kapital, investisiya, pul siyasəti və digər sektorları ilə yanaşı, regionda həyata keçirilən kommunikasiya və nəqliyyat layihələrinin reallaşmasındakı roluna da diqqət çəkirlər.

Nəşrdə qeyd olunur ki, iqtisadi və sosial tərəqqinin əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsul istehsalı Azərbaycanda əhəmiyyətli dərəcədə artıb. ÜDM-in çəkisində qeyri-neft sektorunun, sənayenin, kənd təsərrüfatının payı yüksəlməkdə davam edib. Qeyri-neft sektoru iqtisadiyyatda dominant rol oynamaqla, gələcək inkişafın əsas iqtisadi təməllərindən biri olacağını şərtləndirir.

Azərbaycan son 12 ildə dünya neft istehsalçısı olan ölkələr arasında hasilatın həcmini ən yüksək sürətlə artıran ölkə olub. 2000-ci ildə illik neft istehsalı 14 milyon ton təşkil etdiyi halda, 2010-cu ildə bu rəqəm ən pik həddə - 50 milyon tona çatıb.

Azərbaycan hesabat dövrü ərzində ən iri nəqliyyat və kommunikasiya layihələrini istifadəyə verib. 2012-ci ildə bir sıra texniki problemlərin baş verməsinə baxmayaraq, respublikamız 45 milyon tona yaxın neft tədarük etməklə dünya bazarında əsas hasılatçı ölkələr qrupunda yer alıb. Qaz hasılatı isə 12 il ərzində (2000-2012) 3,4 dəfə artıb. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilib. Azərbaycan hökumətinin müəyyən etdiyi uzunmüddətli strategiyanın əsas istiqamətləri qeyri-neft sektorunun ölkə iqtisadiyyatının inkişafında dominatlığını möhkəmləndirməkdir. Son illərdə, xüsusilə də 2005-ci ildən başlayaraq ümumi daxili məhsulun artımında qeyri-neft sektoru əhəmiyyətli dərəcədə artmağa başlayıb. İqtisadiyyatın inkişafının ağırlıq mərkəzi həm ÜDM-in artım sürətinə, həm də investisiya qoyuluşunun həcminə görə qeyri-neft sektorunun üzərinə keçib və son səkkiz il ərzində ölkə iqtisadiyyatında qeyri-neft sektoru 2,2 dəfə artıb.

Nəşrin diqqət yetirdiyi əsas məqamlardan biri sosial sahədəki islahatların əhəmiyyəti və insanların yaşayışının təmin olunmasındakı müsbət amillərlə bağlıdır. Qeyd olunur ki, son illərdə iqtisadi artım və sosial dinamika, ümumilikdə, orta aylıq əməkhaqqının artımının müqabilində insanların sosial vəziyyətinin yaxşılaşmasına şərait yaradıb. İnflyasiyanın aşağı olması və iqtisadi artım, əhalinin real gəlirləri, milli valyutanın dəyərinin qorunması, iqtisadiyyatda aktivlik əmsalının yüksəldilməsi və digər amillər orta aylıq əməkhaqqının dinamikasına öz təsirini göstərib. 2000-2012-ci illər üzrə əhalinin orta aylıq əməkhaqının artım dinamikası inflyasiya həddini bir neçə dəfə üstələyib, eyni zamanda, manatın məzənnəsi dollara nisəbətən bir neçə bənd möhkəmlənib. Bütün bu faktorlar son nəticədə əhalinin sosial yaşayış imkanlarına müsbət təsir göstərir.

Son 12 ildə respublikada əməkhaqqı və pensiyalar orta hesabla 7,5 dəfə artıb. Hazırda Azərbaycan MDB məkanında orta aylıq əməkhaqqı göstəricisinə görə 3-cü yeri tutur.

Azərbaycanın maliyyə-valyuta ehtiyatlarının artmasına nəzər salan nəşrin ekspertləri respublikamızın MDB-də ən sabit maliyyə vəziyyətinə malik ölkə olmasını qeyd edirlər. Valyuta sabitliyinin əsas göstəricilərindən biri kimi milli pul siyasətinin həyata keçirilməsidir. Valyuta bazarının qlobal çağırışların təsirindən qorunması, milli valyutanın sabit pul aləti kimi dəyərinin möhkəmləndirilməsi, manatın nominal məzənnəsinin dünyanın aparıcı valyutalarının məzənnələrinə uyğun formalaşdırılması üçün Azərbaycan pul islahatlarını həyata keçirən və bu sahədə ən yaxşı nəticələr əldə edən dövlətlərdən sayılır. Xüsusilə də denominasiyanın həyata keçirilməsindən sonra milli valyutanın dəyərinin möhkəmlənməsi maliyyə sabitliyinə təsir edən amillərdən hesab olunur.

**E.CƏFƏRLİ**

# Vergi ödəyiciləri məlumatlandırılır

8 saylı Ərazi Vergilər İdarəsində (ƏVİ) Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərlə bağlı tədbir keçirilib. İdarənin rəisi, baş vergi xidməti müşaviri Elçin Kazımov qeyd edib ki, son illər ölkəmizdə böyük iqtisadi dəyişikliklərin baş verməsi, iqtisadiyyatın sürətli inkişafı, dövlət tərəfindən sahibkarlara köməyin yeni formalarının tətbiq edilməsi, vergi yükünün azaldılması vergi qanunvericiliyinin təkmilləşdirilməsinə səbəb olub. Buna baxmayaraq, iqtisadi inkişafın yeni tələblərinin meydana çıxması vergi qanunvericiliyinə bir sıra dəyişiklikləri zəruri edib. Bu məqsədlə «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanun qəbul olunub və 2013-cü il yanvarın 1-dən qüvvəyə minib.

Elçin Kazımov bildirib ki, Vergi Məcəlləsinin 63 maddəsinə 131 dəyişiklik edilib. Dəyişikliklər, əsasən, dörd istiqaməti əhatə edir: onlardan 9-u vergi ödəyicilərinin hüquqlarının müdafiəsinə, 31-i vergi ödəyicilərinin mənafelərinin qorunmasına, 51-i vergi inzibatçılığının təkmilləşdirilməsinə, 20-si vergi nəzarətinin təkmilləşdirilməsinə, 1-i anlayışlara aiddir, 19-u isə redaktə xarakterlidir.

Tədbirdə o da qeyd olunub ki, Vergi Məcəlləsinə əlavə və dəyişikliklərdə vergi ödəyicilərinin hüquqlarının müdafiəsi ilə bağlı məsələlərə böyük diqqət yetirilib. Dəyişikliklərdə vergi ödəyicilərinin hüquqlarını təmin etmək məqsədilə ödəyicinin maliyyə itkilərinin minimallaşdırılmasını nəzərdə tutan vergi partnyorluğu sazişinin bağlanması hüququnun və vergidən yayınma, vergi qanunvericiliyinin pozulması halları barədə vergi orqanlarına daxil olan müraciətlərə baxılaraq bu barədə müraciət edən şəxslərə məlumat verilməsi nəzərdə tutulub. ƏVİ-nin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi, kiçik vergi xidməti müşaviri Mahir Qarayev Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin bir sıra istiqamətləri barədə vergi ödəyicilərinin suallarını cavablandırıb.

# İcbari Sığorta Bürosu yeniliklərə hazırlaşır



*Sığorta sisteminin sabitliyi və inkişafını təmin etmək üçün, habelə «İcbari Sığortalar haqqında» qanunda nəzərdə tutulan funksiyaların həyata keçirilməsi məqsədilə ölkədə İcbari Sığorta Bürosu yaradılmışdır. Büro Azərbaycanda zərərçəkən sığorta olunanların və zərər vurulan üçüncü şəxslərin maraqlarının müdafiəsini təmin edən yeganə təşkilatdır.*
*İcbari Sığorta Bürosunun icraçı direktoru Elxan Quliyevlə müsahibəmizin əsas mövzusu Büronun sığorta bazarına təsiri və qarşıda duran planlar barədədir.*

**- Elxan müəllim, İcbari Sığorta Bürosunun fəaliyyətə başlamasının sığorta bazarına nə kimi təsiri oldu?**

- İcbari Sığorta Bürosunun yaradılması son illərdə Azərbaycanda sığorta bazarının inkişafının təmin olunması üçün həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Büronun fəaliyyətə başlaması ilə daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortası növlərinin sürətli inkişafı müşahidə olunur. Xüsusilə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə yığımların xeyli artdığını deyə bilərik. 2011-ci illə müqayisədə 2012-ci ildə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqavilələri üzrə daxil olan sığorta haqları 16 dəfədən çox artmışdır.

Yeri gəlmişkən, İcbari Sığorta Bürosu tərəfindən istifadəyə verilən 9707 SMS xidməti vasitəsilə avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqavilələri barədə məlumatlandırılması imkanı yaradılmışdır ki, fikrimcə, bu da əhalinin məlumatlandırılmasında çox mühüm rol oynamışdır.

Daşınmaz əmlakın icbari sığortası ilə bağlı 2012-ci ildə 11410566,44 manat sığorta haqqı ödənilmişdir. Ötən il icbari sığorta növləri üzrə yığımlarla yanaşı, sığorta ödənişləri də artmışdır. 2012-ci il ərzində İcbari Sığorta Bürosunun informasiya sistemi vasitəsilə Büronun iştirakçıları olan sığorta şirkətləri tərəfindən avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 6,83 milyon manata yaxın sığorta ödənişi həyata keçirilmişdir. Sığorta ödənişlərinin tam həcmdə və vaxtında ödənilməsi əhali arasında sığorta şirkətlərinə olan inamın artmasına və nəticədə digər sığorta növlərinin də inkişafına müsbət təsir göstərmişdir.

**- Sığorta bazarının canlanmasına, əhali arasında icbari sığortanın mahiyyətinin dərk edilməsinə İcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişlərinin həyata keçirilməsi necə təsir göstərir?**

- Kompensasiya ödənişlərinin həyata keçirilməsi sığorta bazarının canlanmasına təsir edən mühüm amillərdəndir. Büro tərəfindən 2012-ci ilin aprel ayından etibarən yol-nəqliyyat hadisələri nəticəsində sağlamlığına zərər dəyən üçüncü şəxslərə kompensasiya ödənişlərinin həyata keçirilməsinə başlanılmışdır. İndiyədək Büroya bununla bağlı 14 müraciət daxil olub ki, bunlardan üçü üzrə müvafiq məbləğlərdə kompensasiya ödənişləri həyata keçirilmişdir, biri ödənilmə ərəfəsindədir. Digər müraciətlər isə müvafiq sənədlərin toplanılması ilə əlaqədar baxılma mərhələsindədir.

**- İcbari Sığorta Bürosunun iştirakçısı olma proseduru necədir və bu istiqamətdə sığorta şirkətlərinə hansı tələblər qoyulub?**

- İcbari Sığorta Bürosunun iştirakçısı olmaq istəyən sığorta şirkətlərinə dair qanunvericilikdə bir sıra tələblər müəyyən olunmuşdur. Büronun iştirakçısı olmaq istəyən sığortaçı qanunvericiliklə müəyyən edilmiş məbləğdə iştirak haqqı ödəməli və məşğul olmaq istədiyi icbari sığorta növləri üzrə müvafiq məbləğdə təminat depoziti yerləşdirməlidir. Qeyd edim ki, qanunvericiliklə sığortaçıların tələb olunan kapitalının minimum məbləği müəyyən edilmişdir ki, Büronun iştirakçısı olmaq istəyən sığortaçı iştirak haqqını və təminat depozitini ödədikdən sonra onun tələb olunan kapitalı qanunvericiliklə müəyyən edilən minimum həddən aşağı olmasın.

Büronun iştirakçıları olan sığorta şirkətləri maliyyə sabitliyinə malik olmalıdırlar. Bundan əlavə, Maliyyə Nazirliyinin 01 iyul 2012-ci il tarixdən qüvvəyə minən qərarına əsasən, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən hər hansı icbari sığorta növünün aparılmasına icazə verilməsi üçün sığortaçı həmin qərarla müəyyən olunmuş 10 iqtisadi rayon üzrə zərərlərin tənzimlənməsinə lazımi imkanları olan filial və ya nümayəndəliklərə malik olmalıdır. Həmçinin, 2012-ci ilin əvvəlindən tətbiq olunan qaydaya əsasən, sığortaçıya «Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası» növünün aparılmasına icazə verilməsi üçün onun elektron informasiya sistemi İcbari Sığorta Bürosunun informasiya sisteminə veb-servis vasitəsilə qoşulmaq imkanına malik olmalıdır.

Büronun iştirakçısı olmaq istəyən sığortaçı müvafiq icbari sığorta növünə icazənin verilməsi ilə bağlı sığorta nəzarəti orqanının ilkin razılığı ifadə olunan sənədin əlavə olunduğu rəsmi müraciətini Büroya təqdim etməlidir. İştirak haqqının ödənilməsini və «İcbari sığortalar haqqında» Qanunda nəzərdə tutulmuş təminat depozitinin yerləşdirilməsini təsdiq edən sənədlərin Büroya daxil olduğu tarixdən sığortaçı iştirakçı sığortaçıların reyestrinə daxil edilir və Büronun iştirakçısı sayılır. Hazırda 12 sığorta şirkəti Büronun iştirakçısıdır.

**- Ötən il Azərbaycan Respublikasının «Yaşıl kart» sisteminə daxil olması və bundan sonra avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası şəhadətnaməsinin bu sistemin iştirakçıları olan dövlətlər tərəfindən tanınması barədə məlumat verilmişdi. Bilmək istərdik, sistemə daxil olma ilə bağlı işlər nə yerdədir?**

- Əksər Avropa ölkələri, habelə Rusiya, Türkiyə, İran, Mərakeş və bir sıra digər dövlətləri təmsil edən «yaşıl kart» bürolarının daxil olduğu «Yaşıl kart» sistemi (hazırda 46 üzvü var) avtomobil nəqliyyatı vasitələrinin sahiblərinin mülki məsuliyyəti üzrə beynəlxalq sığorta təminatı sistemi qismində fəaliyyət göstərir. Sistemin başlıca məqsədi xarici avtomobil nəqliyyatı vasitələrinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri zamanı zərər çəkmiş şəxslərin bununla əlaqədar iddialarının hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyi ilə nəzərdə tutulmuş şərtlərə və qaydalara uyğun olaraq tənzimlənməsidir. Bu məqsədlər üçün, sistemə üzv büroların qarşılıqlı zəmanəti əsasında, avtomobil nəqliyyatı vasitələri ilə xarici ölkələrə səfər edən sürücülərin səfər ərzində mülki məsuliyyətini sığortalayan vahid təminat sistemi - «Yaşıl kart» təşkil edilir. Nəticə etibarilə, avtomobil nəqliyyatı vasitələri ilə sistemin əhatə etdiyi xarici ölkələrə səfər edən sürücülərin öz ölkələrindəki sığortaçılardan «yaşıl kart» əldə etməsi onların bütün səfər boyunca mülki məsuliyyətinin tam sığortalanmasını nəzərdə tutur və səfər etdiyi hər bir xarici ölkənin sərhədində yeni mülki məsuliyyət sığortası almaq tələbindən azad edir.

Qeyd etmək lazımdır ki, «Yaşıl kart» sisteminə qoşulma hüquqi, texniki, təşkilati, maliyyə və s. müxtəlif aspektləri ehtiva edən kompleks hazırlıq işlərinin həyata keçirilməsini nəzərdə tutur. Son bir il ərzində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə bu sahədə xeyli iş görülmüş, sistemin xüsusiyyətləri, iş prinsipləri, sistemə qoşulma ilə bağlı müəyyən edilmiş tələblər ətraflı araşdırılmış və bütün bunlara uyğun olaraq ilkin hazırlıq işləri başa çatdırılmışdır. Cari ilin fevral ayının əvvəllərində Belçikanın paytaxtı Brüssel şəhərində «Yaşıl kart» sisteminin idarəedici təşkilatı olan Bürolar Şurasının Müraciətlərlə iş Komitəsinin iclasında İcbari Sığorta Bürosunun sistemə qoşulması məsələsi, aparılmış ilkin hazırlıq işləri ətraflı müzakirə olunmuşdur. Komitə görülən işləri yüksək qiymətləndirərək İcbari Sığorta Bürosunun sistemə qoşulmasına ilkin olaraq müsbət rəy vermişdir. Bürolar Şurasının İdarəedici Komitəsinin bu yaxınlarda keçirilməsi nəzərdə tutulan iclasında bu barədə yekun qərarın qəbul edilməsi gözlənilir. Qərar qəbul olunduqdan sonra yuxarıda qeyd edilən hazırlıq işlərinin, zəruri tədbirlərin qısa müddət ərzində başa çatdırılması təmin olunmalıdır.

***Müsahibəni apardı:***
**Aytən NƏBİYEVA**

# «Fitch Raytings» Azərbaycanın investisiya reytinqini qaldıra bilər




«Fitch Ratings» beynəlxalq reytinq agentliyi hazırda kredit reytinqi «BBB-» səviyyəsində olan Azərbaycanın yaxın vaxtlarda investisiya reytinqinin daha da yüksələcəyini proqnozlaşdırdığını bəyan edib. Təşkilat hesab edir ki, Azərbaycan hazırda kredit reytinqinə görə investisiya qabiliyyətinin yüksək olduğu ölkələr statusundadır. Azərbaycanın beynəlxalq səviyyəli investisiya reytinqinin olması respublikamızın beynəlxalq coğrafiyada potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsinə zəmin yaradır. Bu gün Azərbaycan beynəlxalq maliyyə bazarlarında aktiv iştirakçıya çevrilib, dünyanın ən iri fond birjalarında qiymətli kağızların emissiyası və dövlət istiqrazlarının beynəlxalq bazarlarda yerləşdirilməsində mühüm paya malikdir.

Respublikamızın iqtisadi inkişafının dayanıqlı olması, əlverişli investisiya mühiti, güclü maliyyə sabitliyi, qlobal təsirlərə qarşı dözümlülük, iqtisadiyyatın böyüməsi və maliyyə ehtiyatlarının xarici bazarlarda aktiv investisiyaya yönəldilməsi və digər amillər yeni reytinqin müəyyənləşməsinə zəmin yaradır. «Fitch Ratings»in Avropa ölkələri üzrə direktoru Çarlz Sevill bildirib ki, Azərbaycanın güclü maliyyə mövqeyi kredit və investisiya reytinqinin «BBB-» səviyyəsindən «BBB+» şkalasına qaldırılmasına imkan verir. Xatırladaq ki, agentlik sonuncu dəfə ölkəmizin reytinqini 2012-ci ilin mayında «BBB-» müəyyən edib və yeni reytinqin 2013-cü ildə təyin olunması güman edilir. Çarlz Sevillin sözlərinə görə, hazırda Azərbaycan neft gəlirlərinin sürətlə artması fonunda güclü daxili və xarici kreditor mövqeyinə malikdir. Bu amillər borc böhranının ölkədaxili iqtisadi islahatların sistemliliyinə təsirini minimuma endirib. Avropada baş verən böhranın təsirləri Azərbaycanda antiböhran siyasətinin çevik və effektli şəkildə həyata keçirilməsi sayəsində hiss edilməyəcək dərəcədədir. Makroiqtisadi sabitliyin qorunması və bir sıra ehtiyat tədbirlər real sektorda iqtisadi artımın davam etməsinə təkan verib. Valyuta-bank sisteminin sağlamlığı və maliyyə sektorunun dözümlü olması özəl sektorda dinamikliyə müsbət təsir etməkdədir.

Hazırda Azərbaycan büdcə xərcləri və digər xərclər, eləcə də dövlət borcu çıxılmaqla böyük həcmdə maliyyə mənbələrinə malikdir ki, bu da ölkənin məcmu ehtiyatlarının 30 milyard dollardan artıq olmasını təsdiqləyir. Məcmu maliyyə ehtiyatlarının həcmi ümumi daxili məhsulun 60%-nə bərabərdir, bu isə Avropada ən yaxşı sabitlik göstəricisi hesab olunur. Çarlz Sevillin də qeyd etdiyi kimi, Azərbaycanın böyük həcmdə maliyyə resursları və ən aşağı səviyyədə xarici borc əmsalı «BBB-» səviyyəsinə malik olan ölkələr sırasında ən yüksək göstərici deməkdir. Bu isə reytinq şkalasının artırılmasında əlverişlı faktorlardan biridir. Bundan başqa, respublikamızdakı biznes mühiti və xarici sərmayədarların fəaliyyətinin genişlənməsi, normal investisiya fəallığı reytinqin bir pillə artmasında əlverişli rol oynaya bilər. Agentliyin analitiklərinin fikrincə, stabil reytinq sərmayə cəlbediciliyinə təsir edir və bu mənada, investisiya reytinqinin müsbət olması xarici investorların ölkəyə marağının artmasına zəmin yaradır. Eyni zamanda, mövcüd beynəlxalq kredit statusu Azərbaycanın dünya maliyyə bazarlarına çıxışına münbit şərait yaradır. «Fitch Ratings»in proqnozlarına görə, mövcud maliyyə sabitliyi və iqtisadiyyatın qeyri-neft bölmələrindəki aktivlik Azərbaycanın 2013-cü ildə ÜDM-in ən azı 3% artımına səbəb olacaq. Sonrakı illərdə milli məhsulun artımının illik 1-2% yüksəlməsi gözlənilir. Bu dinamikaya neft və qeyri-neft gəlirlərinin artması da təsir edəcək.

Onu da qeyd edək ki, agentlik Azərbaycan banklarının bir neçəsinin də reytinqini yüksəldib və bu, ölkədəki ümumi makroiqtisadi sabitliyin, neft bazarında əlverişli konyunkturun olması fonunda baş verib. Qeyd olunur ki, bankların beynəlxalq maliyyə təşkilatları ilə kreditləşmə sahəsində əlaqələri onların likvidliyinə müsbət təsir göstərəcək.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# Xronometraj metodu ilə müşahidənin keçirilməsi

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 1 yanvar 2013-cü il tarixdən qüvvəyə minmiş Qanun ilə vergi ödəyicilərinin obyektlərində xronometraj metodu ilə müşahidələrin keçirilməsi qaydalarının təkmilləşdirilməsi istiqamətində müəyyən dəyişikliklər edilmişdir.

Beynəlxalq təcrübədə vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi sahəsində vergi orqanları tərəfindən vergi ödəyicilərinin fəaliyyət göstərdikləri obyektlərdə xronometraj metodu ilə müşahidələrin aparılması geniş yayılmışdır. Vergi ödəyicilərində xronometraj metodu ilə müşahidələrin keçirilməsi, ilk növbədə, müəyyən vaxt (saat, gün və s.) intervalında görülən işlərin, göstərilən xidmətlərin və satılan malların faktiki həcmlərinin müəyyən olunmasını nəzərdə tutur. Əksər ölkələrin təcrübəsində xronometraj metodu ilə müşahidələrin aparılması, bir qayda olaraq, aşağıdakı hallarda həyata keçirilir:

- vergi yoxlaması zamanı vergi ödəyicisindən əldə edilmiş məlumatlar əsasında onunla əməliyyat aparmış digər vergi ödəyicisində vergidən yayınma hallarının əlamətləri müəyyən edildikdə;
- digər dövlət orqanlarından alınmış məlumatlar əsasında vergi ödəyicisində vergidən yayınma hallarının olmasına ehtimal yarandıqda;
- istehlakçılardan vergi ödəyicisinin fəaliyyəti ilə bağlı şikayət və narazılıqlar barədə məlumatlar daxil olduqda;
- vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən edilmiş müddətlərdə hesabat məlumatları təqdim olunmadıqda;
- sonuncu yoxlama zamanı vergi ödəyicisi tərəfindən qanunvericiliyin tələblərinin pozulması hallarına yol verildiyi barədə faktlar aşkar edildikdə.

Göründüyü kimi, vergi ödəyicisinin fəaliyyəti ilə bağlı xronometraj metodu ilə müşahidələrin keçirilməsinə əsas verən halların siyahısı çox genişdir. Vergi ödəyicilərində keçirilən müşahidələrin səmərəliliyi baxımından xronometrajın keçirilməsinə əsas verən hər bir halın qabaqcadan əsaslandırılması vacib şərtlərdən sayılır. Bununla əlaqədar olaraq, adətən, təcrübədə xronometraj metodu ilə müşahidələrin keçirilməsinə əsas verən hallardan yalnız bir neçəsi əsas qəbul edilir.

Qeyd etmək lazımdır ki, xronometraj metodu ilə müşahidələrin vergi yoxlamalarından əsas fərqi budur ki, bu zaman vergi ödəyicisinin fəaliyyətinə xələl gətirilmədən, vergi ödəyicisindən əlavə sənədlər və ya izahatlar tələb edilmədən kənardan müşahidə aparılmaqla həyata keçirilir. Təcrübə göstərir ki, belə müşahidələrin pərakəndə ticarət, iaşə və digər xidmət sahələrində keçirilməsi daha məqsədəmüvafiqdir.

Azərbaycan Respublikasının qanunvericiliyində vergi ödəyicilərinin obyektlərində xronometraj metodu ilə müşahidələrin keçirilməsi 2001-ci ildən qüvvədə olan Vergi Məcəlləsi ilə müəyyən edilmişdir. 1 yanvar 2013-cü il tarixədək olan dövrdə xronometraj metodu ilə müşahidələr Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş qaydalara uyğun həyata keçirilirdi. Bu sahədə əldə olunmuş təcrübə göstərmişdir ki, xronometraj metodu ilə aparılan müşahidələrin səmərəliliyinin daha da artırılması üçün onun keçirilməsi qaydalarının təkmilləşdirilməsinə zərurət vardır. Bu məqsədlə Vergi Məcəlləsinə xronometraj metodu ilə müşahidə aparılmasına dair yeni - 50-1-ci maddə əlavə edilmişdir. Məcəllədə bu dəyişiklik edilməklə həm xronometrajın keçirilmə qaydası təkmilləşdirilmiş, həm də vergi qanunvericiliyinin vahid normativ-hüquqi bazasının yaradılması ilə əlaqədar xronometraja dair Nazirlər Kabinetinin qərarı ilə tənzimlənən normalar Vergi Məcəlləsinə daxil edilmişdir.

Vergi Məcəlləsinin 50-1-ci maddəsində Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş qaydalardan fərqli olaraq, xronometraj metodu ilə müşahidələrin keçirilməsinin üç yeni halı müəyyən edilmişdir:

- vergi ödəyicisinin təqdim etdiyi vergi bəyannamələrdə vergi tutulan dövriyyə əvvəlki hesabat dövriyyələri ilə müqayisədə 30%-dən çox azaldıqda, yaxud dövriyyə məbləğlərinin vergi ödəyicisinin fəaliyyəti barədə iqtisadi göstəricilərinə, işçilərinin sayına, əmtəə-material ehtiyatlarının həcminə, satış qiymətlərinə və aktivlərinin dəyərinə uyğun olmaması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;
- əhali ilə pul hesablaşmalarının aparılması qaydalarının təkrar pozulması faktları aşkar olunduqda;
- vergi ödəyicisi yeni xronometraj metodu ilə müşahidə keçirilməsi haqqında vergi orqanına tələb irəli sürdükdə.

Xronometraj metodu ilə müşahidələrin keçirilməsi qaydalarında edilmiş daha bir dəyişiklik müşahidələrin səmərəliliyinin artırılmasına və onun təkrar keçirilməsini tələb etmək hüquqlarından sui-istifadə hallarının aradan qaldırılmasına yönəldilmişdir. Həmin dəyişikliklə müəyyən edilmişdir ki, xronometraj metodu ilə təkrar müşahidə keçirilməsi haqqında tələbi vergi ödəyicisi sonuncu xronometraj metodu ilə müşahidədən ən azı 1 ay keçdikdən sonra, növbəti dəfə isə sonuncu müşahidədən ən azı 2 ay sonra təqdim edə bilər.

Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisində keçirilən xronometrajın nəticəsi olaraq orta günlük göstərici müəyyən edilir və bu barədə müvafiq akt tərtib olunur. Xronometrajla müəyyən olunmuş orta günlük göstərici isə Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada və hallarda vergi ödəyicisinin vergilərinin hesablanması üçün əsas götürülə bilər.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Səyyar vergi yoxlaması

*Səyyar vergi yoxlamasını keçirən vergi orqanı əməkdaşları məndən işlə əlaqədar olan elektron faylları tələb edirlər. Onların buna hüququ varmı və mən bunu təqdim etməyə borcluyammı?*

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 2012-ci il 21 dekabr tarixli Qanunda vergi ödəyicisinin elektron fayllarının tələb edilməsi ilə bağlı müddəalar da öz əksini tapıb. Məcəllənin 16.1.6-cı maddəsinə əsasən, VM ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün və filiallarının elektron daşıyıcılarında olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsidir.

VM-in 23.1.2-ci maddəsində vergi orqanının hüquqları qismində vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq, yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumat almaq, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatlarının verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb etmək qeyd olunmuşdur.

VM-in 42.1-ci maddəsinə əsasən, səyyar vergi yoxlamasını keçirən vergi orqanının vəzifəli şəxsi 38.1-ci maddəyə uyğun olaraq vergi ödəyicisinə göndərdiyi bildirişlə birlikdə yoxlama üçün zəruri olan sənədləri, habelə elektron faylları vergi ödəyicisindən tələb edə bilər.

Sənədlərin və ya elektron faylların verilməsi barəsində tələb yönəldilən şəxs həmin sənədləri və ya elektron faylları 15 iş günü müddətində vergi orqanına təqdim etməlidir.

VM-in 42.2-ci maddəsində qeyd edilmişdir ki, səyyar vergi yoxlamasını bilavasitə həyata keçirən vergi orqanının vəzifəli şəxsinə tələb olunan sənədlər vergi ödəyicisi tərəfindən 42.1-ci maddənin ikinci abzasında göstərilən müddətdə təqdim edilmədikdə və ya həmin sənədlərin və ya elektron faylların onda olmaması vergi ödəyicisi tərəfindən bildirildikdə, yoxlamanı həyata keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir. Ödəyici həmin aktı imzalamaqdan imtina etdikdə, aktda bu barədə qeyd edilir. Tərtib olunmuş aktın surəti vergi ödəyicisinə verilir. Tələb olunan sənədləri və ya surətlərini səyyar vergi yoxlamasının keçirildiyi müddətdə digər mənbələrdən əldə etmək mümkün olmadıqda, həmin akta əsasən, vergi orqanının ödənilməli olan vergi məbləğlərini Vergi Məcəlləsinin 67-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada müəyyən etmək hüququ vardır.

VM-in 42.3-cü maddəsində qeyd edilmişdir ki, səyyar vergi yoxlaması üçün zəruri olan vergi orqanı tərəfindən tələb edilən sənədlərin və ya elektron faylların vergi ödəyicisi tərəfindən vergi orqanına verilməsindən imtina edilməsi və ya 42.1-ci maddədə göstərilən müddətdə təqdim edilməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur. Bu maddədə göstərilən qaydada sənədlərin və ya elektron faylların təqdim edilməsindən imtina edildikdə səyyar vergi yoxlamasını həyata keçirən vergi orqanının vəzifəli şəxsi sənədlərin götürülməsini VM-in 43-cü maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirə bilər.

VM-in 71.4-cü maddəsinə əsasən, mühasibat uçotu sənədləri, o cümlədən elektron və (və ya) kağız formatda məlumatlar tam oxunaqlı şəkildə 5 ildən az olmamaqla qanunla müəyyən edilmiş müddətdə saxlanmalıdır. Məcəllənin 57.3-cü maddəsində qeyd edilmişdir ki, 23.1.2-ci maddədə göstərilən sənədlərin (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə, habelə sənədlərin və ya məlumatların VM-in 71.4-cü maddəsi ilə müəyyən edilmiş müddətdə üzürlü səbəb olmadan saxlanılmamasına görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

# «ASAN xidmət» özünü doğruldur

*«ASAN xidmət» mərkəzlərinin yaradılması dövlət orqanları xidmətlərinin göstərilməsində vətəndaş məmnunluğunun, şəffaflığın təmin edilməsinə, korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsinə, müasir texnologiyaların tətbiq edilməsinə, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına xidmət edir.*

Yanvarın 15-də Bakı şəhərində pilot layihə kimi fəaliyyətə başlayan 1 saylı «ASAN xidmət» mərkəzi hazırda üç - Nəsimi, Nərimanov, Binəqədi rayonlarının vətəndaşlarına xidmət göstərir. Fəaliyyətə başladığı 60 gün ərzində - mart ayının 17-nə kimi mərkəzə 32754 vətəndaş müraciət etmiş və xidmətlərdən yararlanmışdır. Göstərilən xidmətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat işləri, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı müraciətlər daha çox olmuşdur. Vətəndaşlar mərkəzə gəlmədən internet və ya telefon vasitəsilə bütün xidmət növləri, tələb edilən sənədlər barədə məlumat ala, növbə tuta, mərkəzin fəaliyyəti ilə bağlı təkliflərini verə bilərlər. Bu, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «Çağrı» mərkəzinə stasionar (ev, iş) telefonlardan birbaşa 108 rəqəmini yığmaqla mümkündür. Fevral ayının 1-dən fəaliyyətə başlamış «Çağrı» mərkəzinə edilən zəng və aparılan danışıq, habelə göstərilən bütün xidmətlər ödənişsizdir.

Bakı şəhəri, akademik Həsən Əliyev küçəsi 36 ünvanında yerləşən «ASAN xidmət» mərkəzi həftənin bütün günləri işləyir. Mərkəz bazar ertəsi - şənbə günləri saat 10:00-dan 20:00-dək, bazar günü isə saat 11.00-dan 17:00-dək vətəndaşların istifadəsindədir.

### «ASAN xidmət» mərkəzlərinin sayı artır

«Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda ölkə Prezidenti cənab İlham Əliyev çıxışı zamanı «ASAN xidmət» konsepsiyasının gözəl nəticə verdiyini vurğulamış, ilin sonunadək Bakı, Sumqayıt və Gəncə şəhərlərinin tam əhatə edilməsi barədə göstəriş vermişdir.

Bu ilin may ayında Bakının Xətai rayonunda və Sumqayıt şəhərində «ASAN xidmət» mərkəzinin fəaliyyətə başlayacağı gözlənilir. Bu mərkəzlər Bakı şəhərinin bir neçə rayonuna, Sumqayıt şəhərinə, eləcə də Sumqayıta yaxın olan rayonlara xidmət edəcəkdir.

İyulun əvvəlində isə Bakı şəhərinin Yasamal rayonunda daha bir «ASAN xidmət» mərkəzi fəaliyyətə başlayacaq. Bununla da Bakı şəhərinin bütün rayonlarının sakinləri «ASAN xidmət»dən yararlana biləcəklər. Avqust ayının sonunadək isə Gəncə şəhərində «ASAN xidmət» mərkəzinin fəaliyyətə başlaması nəzərdə tutulur - mərkəz Gəncə şəhəri ilə yanaşı, Gəncəətrafı rayonların əhalisinə xidmət göstərəcək.

### Mərkəzlərdə funksional yardımçı xidmətlər göstəriləcək

Xidmət növlərinin sayının artırılması, vətəndaşlara daha çox sahələr üzrə keyfiyyətli və şəffaf xidmətlərin göstərilməsi məqsədilə dövlət başçısı İlham Əliyev tərəfindən mart ayının 18-də «ASAN xidmət» mərkəzlərinin fəaliyyətinin təşkili və xidmətlərin göstərilməsi Qaydaları»nda dəyişikliklər edilməsi barədə fərman imzalanmışdır. Qeyd edək ki, bu günə qədər «ASAN xidmət» mərkəzində 23 hüquqi xidmət həyata keçirilirdi. Dəyişikliyə əsasən, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə əmək fəaliyyətini həyata keçirmələri üçün fərdi icazələrin, daşınmaz əmlakla bağlı dövlət reyestrindən arayışların verilməsi xidmətləri göstəriləcək. Bunlardan əlavə, mərkəzlərdə vətəndaşlar üçün 22 növ funksional yardımçı xidmətlər həyata keçiriləcəkdir: vətəndaşlara bank xidmətləri (cari bank hesablarının açılması, valyuta mübadiləsi), mərkəzlərdə göstərilən xidmətlərlə bağlı dövlət rüsumlarının və xidmət haqlarının, inzibati xətalara dair cərimələrin qəbulu, avtomobillərin və daşınmaz əmlakın sığortası da yerinə yetiriləcək. Bununla yanaşı, müraciət edən vətəndaşlara hüquqi məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar, arayışlar veriləcək, məhkəmələrə iddia ərizələrinin verilməsi ilə bağlı hüquqi yardım göstəriləcək, ərizələrin, şikayətlərin və hüquqi xarakterli sənədlərin tərtib edilməsi, o cümlədən vətəndaşların müraciəti əsasında digər növ hüquqi yardım göstərilməsi həyata keçiriləcəkdir. Mərkəzlərdə hər növ sənədlərin dövlət dilinə və ya dövlət dilindən digər dillərə tərcümə edilməsi, tibbi arayışların verilməsi, ilkin tibbi yardım göstərilməsi də nəzərdə tutulur. Bəzi xidmətlər (məsələn, real vaxt rejimində növbə tutulması, vətəndaş müraciətlərinin qəbulu və cavablandırılması, göstərilən xidmətlər barədə vətəndaşların məlumatlandırılması) ASAN.gov.az saytı vasitəsi ilə elektron formada həyata keçiriləcək. Həmçinin, e-asan bölməsi vasitəsi ilə xidmətlərlə bağlı dövlət orqanlarına müraciətlərin qəbulunun və həmin müraciətlərin cavablandırılmasının elektron formada təşkili də mümkün olacaq. Mərkəzlərdə quraşdırılan xüsusi terminallarda mobil rabitə, internet, kommunal, kredit və sığorta ödənişlərinin həyata keçirilməsinə imkan yaradılacaq.

«ASAN xidmət» mərkəzlərində yardımçı xidmətlərin göstərilməsi ilə vətəndaşlar hər hansı sənədi əldə etmək üçün mərkəzdə gözlədikləri vaxt ərzində onlara lazım olan, lakin vaxt qıtlığı və ya hər hansı digər səbəbdən müraciət edə bilmədikləri xidmətlərdən yararlanmaq imkanı əldə edəcəklər. Bu, bir neçə problemin eyni vaxtda, eyni məkanda həll edilməsini təmin edəcək.

İyun ayından isə «ASAN xidmət»də daha bir yenilik tətbiq olunacaq: zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş xüsusi avtobuslar ölkənin şəhər və rayonlarında səyyar formada əhaliyə xidmətlər göstərəcək.

Onu da qeyd etməyə dəyər ki, yardımçı xidmətlər, əsasən, özəl təşkilatlar tərəfindən göstərildiyindən, «ASAN xidmət» özəl sektorun inkişafı üçün də əlverişli şərait yaradır.

**Arzu İBRAHİMOVA**

# Zamanın tələbi

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən təqdim olunmuş gücləndirilmiş elektron imza vəsiqələrinin sayı 10 mini keçib. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, mart ayının 15-nə dövlət qurumlarına 7082, hüquqi şəxslərə 221, vətəndaşlara isə 2761 sertifikat təqdim olunub. Artıq 7000 vətəndaş sadələşdirilmiş kod-parol əldə edib.*

### Elektron imzanın alınması prosedurları sadələşdirilir

Vətəndaşların elektron imza vəsiqələrinin əldə edilməsi prosedurunun daha da sadələşdirilməsi məqsədilə 2012-ci ilin oktyabr ayından «e-ərizə xidməti»nin tətbiqinə başlanmışdır. Yeni xidmətin istifadəyə verilməsində məqsəd e-imza vəsiqələrinin alınmasına sərf edilən vaxt itkisinin azaldılması, vətəndaşın qeydiyyat məntəqəsinə yalnız bir dəfə gəlməsini və qeydiyyat məntəqəsi əməkdaşları ilə minimum təmasda olmasını təmin etməkdir.

Hüquqi şəxslərin və dövlət qurumlarının e-imza vəsiqələrinin əldə olunmasına artan tələbatı nəzərə alınaraq, onların e-imza vəsiqələrini sadə qaydada əldə edə bilmələri üçün mövcud prosedurlar daha da sadələşdirilmişdir.

Bu məqsədlə hüquqi şəxslər və dövlət qurumları üçün «e-ərizə xidməti» proqram məhsulu hazırlanıb. Bunun köməyi ilə istənilən dövlət qurumu uniport üzərindən, hüquqi şəxslər və yerli özünüidarəetmə orqanları isə internet üzərindən elektron müraciət formasını doldurmaqla və ödəniş etməklə elektron imza kartı sifariş edə bilərlər.

Sifariş qəbul olunub e-imza kartı hazırlandıqdan sonra imza sahibi ilə əlaqə saxlanılır və e-imza kartı sahibinə təqdim olunur. Elektron xidmətlərdən istifadənin genişləndirilməsi, «vətəndaş-hökumət», «sahibkar-hökumət» münasibətlərinin elektronlaşması elektron imza xidmətlərinin daha da aktuallaşmasını zəruri edir. Bu baxımdan, «e-ərizə xidməti»nin fəaliyyətə başlaması ilə istifadəçilər daha yüksək keyfiyyətli xidmətlə təmin olunacaqlar.

Proqram tərəfindən hüquqi şəxslər üçün müqavilə, ərizə və səlahiyyətli şəxsin təyin olunması haqda əmr formaları avtomatik qaydada tərtib edilir. Sifarişçi yalnız bu sənədləri imzalayıb möhürləyərək MHM-ə göndərir. Sifarişçi e-imza vəsiqəsinin ödənişini də onlayn formada həyata keçirə bilər. Sifariş ödəniş aparıldıqdan dərhal sonra qəbul olunur və imzalanmış sənədlər MHM-ə çatdıqdan sonra sifarişçiyə göndərilir.

E-imza vəsiqələrinin yerində sifarişçilərə çatdırılması məqsədilə MHM ilə Xüsusi Rabitə İdarəsi arasında müqavilə bağlanmışdır. Hüquqi şəxslər şəhər və rayon mərkəzlərində bu xidmətdən yararlana biləcəklər. Xüsusi Rabitə İdarəsinin feldyegeri fərdi qaydada ünvana çatdıqdan sonra elektron imza sahibinin şəxsiyyətini müəyyənləşdirməli və MHM tərəfindən sənədlərdəki müvafiq yerlərdə sifarişçinin imzalanmasını təmin etməli və imzalanmış sənədlərin nüsxəsini MHM-ə qaytarmalıdır. Sifarişçi çatdırılmaya görə əlavə ödəniş etməyəcəkdir.

Yenilik istifadəçilərə xidmət keyfiyyətini yüksəltmək, dövlət qurumlarının və sahibkarlıq subyektlərinin rahatlığını, eləcə də operativliyi təmin etməklə yanaşı, elektron imza sertifikatlarının alınmasında yarana biləcək vaxt itkisinin qarşısını alacaq.

Xidmətdən hüquqi şəxslər www.e-imza, www.e-gov.az, dövlət qurumları isə uniport vasitəsilə istifadə edə bilərlər.

### Dövlət orqanları üçün elektron imza tarifləri aşağı salınıb

MHM-dən verilən məlumata görə, dövlət orqanları arasında elektron imzalara artan maraq nəzərə alınaraq, onun qiyməti 135 manatdan 80 manata salınıb. Dövlət idarələrinin əməkdaşları üçün imzanın istifadə müddəti üç il təşkil edir. Qeyd edək ki, əhali üçün bir illik elektron imzanın qiyməti 14 manat, iki illik 22 manat, üç illik isə 30 manatdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün bir illik 60 manat, iki illik 114 manat, üç illik 168 manat təşkil edir. Elektron imzanı Azərbaycanın bütün ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında əldə etmək olar.

Elektron imza xidmətlərini MSXM-in Qeydiyyat mərkəzlərindən əldə etmək üçün müraciət edən zaman mütləq şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir. E-imza kartı itirildikdə, oğurlandıqda və ya identifikasiya kodu (pin kod) unudulduqda mütləq müştərilərə xidmət məqsədilə fəaliyyət göstərən «Zəng» mərkəzinə (157) müraciət etmək lazımdır. Kartda olan sertifikatlar bloka salınacaq və qüvvəsi dayandırılacaq.

E-imza kartı konkret şəxsə aid olduğu üçün ondan yalnız həmin adam istifadə edə bilər. Kartın başqa şəxsə verilməsi və pin kodun digər şəxsə bildirilməsi ciddi pozuntu halı hesab edilir. Elektron imza xidmətlərindən istifadə üçün kompüter və kart oxuyucusunun olması vacibdir. «Vaxt möhürü»ndən istifadə üçün internet də mütləqdir. Qeyd edək ki, «vaxt möhürü» MSXM tərəfindən verilən sertifikatlaşdırılmış təsdiqdir - sənədin konkret olaraq imzalanma vaxtını ifadə edir. «Vaxt möhürü», sənəd qüvvəyə malik olsun deyə, elektron imza ilə birlikdə istifadə olunur.

Biri hüquqi, ikincisi isə fiziki şəxs olaraq bir adam iki və ya daha çox sertifikata sahib ola bilər. Bir tərəf sənədi elektron şəkildə, digər tərəf isə əl ilə imzaladıqda elektron sənədi nomenklaturada rəsmi olaraq qeydiyyata almaq, təsdiqləmək lazımdır. Yalnız bundan sonra sənəd kağız şəklində qüvvədə ola bilər.

### Sertifikatın fəaliyyət müddəti

Verilən sertifikat üçün fəaliyyət müddəti müəyyən edilir. Məsələn, o, 3 il ərzində həqiqi hesab edilə bilər. Bu müddət bitəndə onun sahibinə yeni sertifikat verilir. Sertifikatın fəaliyyət müddəti ondakı informasiyadan çox asılıdır. Bu sənəd nə qədər çox informasiya daşıyırsa, onun faydalı fəaliyyət müddəti də bir o qədər az olur. Bu onunla əlaqədardır ki, informasiya dəyişə bilir və onun sahibinə köhnə sertifikatın fəaliyyət müddəti bitənə qədər yenisini vermək lazım gəlir. Bundan əlavə, sertifikatdakı istənilən informasiya açıq olur. Beləliklə, sertifikata mümkün olduqca az informasiya daxil etmək lazımdır. Sertifikatın ləğv edilməsi sertifikatlaşdırma prosesinin tərkib hissəsi hesab edilir.




**A.İBRAHİMOVA**

# 31 Mart – Azərbaycanlıların Soyqırımı günü

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

XX əsrin əvvəllərində ermənilər təkcə bu gün Ermənistan adlanan ərazi deyil, Bakı quberniyasının Bakı, Şamaxı, Quba, Göyçay qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda da vaxtaşırı xalqımıza qarşı qırğınlar, talanlar, yanğınlar, terror və digər zorakılıq aktları həyata keçirmişlər. Erməni daşnakları bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı yalnız milli mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirmiş, yaşayış yerlərini talan edərək viran qoymuş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlardan 95 il ötməsinə baxmayaraq, bu vəhşiliklər xalqın qan yaddaşında əbədi iz buraxmışdır. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusən genişlənmişdir. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri etnik qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlar Bakıda, Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndlərin talan edilərək dağıdıldığını sübut edir.

Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son üç günündə təkcə Bakıda otuz mindən çox əhalini ermənilər xüsusi amansızlıqla qətlə yetirmişlər. Mart soyqırımı zamanı Bakının şəhər camaatından o dövrün pulu ilə 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olunmuşdu. Mart qırğınları haqqında müstəqil tədqiqatçı Kulqe yazır: «Ermənilər müsəlman əhalini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub sakinlər qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər». Kulqe ermənilər tərəfindən üzü divara çevrilərək itlərə parçaladılan azərbaycanlıların şəkillərini də çəkmişdir. Bu faktlar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və ancaq 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğının əks etdirir.

1918-ci ildə ermənilər dinc əhaliyə qarşı görünməmiş amansızlıqlar etdikləri kimi, mədəniyyət və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirdilər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi fotoşəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir.



1918-ci ilin mart soyqırımı zamanı, Bakı ilə yanaşı, Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuş, 13 məhəllə məscidi və məşhur müqəddəs ocaq - Cümə məscidi yandırılmışdı. Həmin günlərdə Şamaxı qəzasının 53 kəndində ermənilər 8 mindən çox azərbaycanlını qətlə yetirmişlər ki, onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşdur.

Əvvəlcədən qurulmuş plana görə, daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. Həmin dövrdə S.Şaumyan Cənubi Qafqazda «Böyük Ermənistan» dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi.

Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Ermənilərin vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində burada 16 mindən çox insan məhv edilmişdir. Ayrı-ayrı mənbələrə və şahidlərin dediklərinə əsasən, qırğın zamanı 12 minədək ləzgi, 4 mindən çox azəri türkü öldürülmüşdü. Qeyd olunan hadisələr zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışlar ki, bunlardan 35-i hazırda mövcud deyildir.

1918-ci ilin yazından başlayaraq, Ermənistanda (Qərbi Azərbaycan) yaşayan azərbaycanlılar da erməni-bolşevik dəstələri tərəfindən soyqırımına məruz qalmışlar. Ermənilər «Böyük Ermənistan» yaratmaq üçün ilk növbədə Qərbi Azərbaycandakı müsəlman əhalini buradan çıxarmağa və bu məkrli planın reallaşmasına çalışırdılar. Təkcə 1918-ci ilin aprel ayının sonunda bu ərazidə dağıdılmış müsəlman kəndlərinin sayı 199-a çatırdı.

Ötən əsrdə dörd dəfə - 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən başlayan və bu gün də davam edən ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və deportasiya siyasəti özünü Dağlıq Qarabağ münaqişəsində münasibətdə aydın şəkildə göstərir və onu deməyə əsas verir ki, ermənilərin xalqımıza olan tarixi münasibəti dəyişməyib.

1918-ci ilin yazında erməni-bolşevik dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş vəhşiliklər haqda tarixi faktları kiçik bir yazıya yerləşdirmək mümkün deyil. Lakin sadalanan faktlar da yetərlidir ki, 1918-ci ilin mart ayında Bakı şəhərində və Azərbaycan qəzalarında daşnak-bolşevik birləşmələrinin türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər istər hüquqi baxımdan, istərsə də siyasi cəhətdən soyqırımı kimi qiymətləndirilsin.

Azərbaycan xalqına qarşı törədilmiş bütün faciələrə siyasi-hüquqi qiymət verilməsi məsələsinə həssaslıqla yanaşan ümummilli lider Heydər Əliyevin 27 mart 1998-ci il tarixli fərmanı ilə respublikamızda 31 Mart - Azərbaycanlıların Soyqırımı günü kimi dövlət səviyyəsində qeyd edilir.

Hər bir millətin tarixində faciələr, qırğınlarla dolu səhifələr mövcuddur, lakin xalq o zaman gələcəyə inamla irəliləyir, o zaman qüdrətli, güclü olur ki, ulu öndər Heydər Əliyevin də qeyd etdiyi kimi, tarixi hadisələrə biganə yanaşmasın, faciələrdən nəticə çıxarmağı bacarsın.

**Anar ƏLİYEV**

# İqtisadi əməkdaşlıq üçün səmərəli platforma




*Ümumdünya İqtisadi Forumunun (Davos Forumu) aprel ayının 7-8-də Bakıda təşkil olunacaq toplantısı Azərbaycanın iqtisadi sahədə regional liderliyinin, habelə Avratlantik məkandakı iqtisadi nüfuzunun əyani göstəricisi kimi dəyərləndirilir. Təşkilatın baş katibi Klaus Şvab hesab edir ki, Bakıda keçiriləcək Forum ümumən Cənubi Qafqaz və Orta Asiya regionlarında iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafına öz töhfəsini verəcəkdir.*

Xatırladaq ki, bu barədə qərar Ümumdünya İqtisadi Forumunun 2013-cü ilin yanvarında İçveçrənin Davos şəhərində keçirilmiş 43-cü iclasında qəbul olunub. Qurumun saytında bildirildiyinə görə, «Cənubi Qafqaz və Mərkəzi Asiyanın inkişafı üzrə strateji dialoq» mövzusunda keçiriləcək Bakı Forumu çərçivəsində müxtəlif mövzular üzrə sessiyaların təşkili nəzərdə tutulur. Sessiyalar «Energetika və təbii ehtiyatlar: imkanlar və çağırışlar, irəliyə addım», «Sahibkarlıq və insan kapitalı», «Maliyyə və uzunmüddətli sərmayələr», «Ticarət və nəqliyyat zənciri», «Azərbaycanın vizyonu: yeni iqtisadiyyata doğru» mövzularına həsr olunacaq.

Davos Forumu BMT-nin İqtisadi və Sosial Şurası (ECOSOC) yanında qeyri-hökumət təşkilatı kimi məsləhətçi statusa malikdir. Forum bəşəriyyətin üzləşdiyi mühüm problemləri müəyyənləşdirməyə yardımçı olur və onların müzakirəsi üçün iqtisadi platforma rolunu oynayır. Müstəqil fəaliyyət göstərən Forumun başlıca vəzifəsi dünyanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün biznes və sosial sahədə əməkdaşlığı təmin etməkdən ibarətdir.

Qloballaşan dünya iqtisadiyyatının inkişaf prioritetləri daha çox transmilli şirkətlərin cəmləşdiyi işgüzar çevrələrdə müəyyənləşdiyindən, Bakıda keçiriləcək Forumun iqtisadçı ekspertlər tərəfindən diqqətlə izlənilməsi tamamilə təbiidir. 43-cü ənənəvi illik toplantının yekunlarının təhlili göstərir ki, qeyri-rəsmi səciyyə daşıyan Davos müzakirələri kifayət qədər işgüzar və səmimi atmosferdə keçməklə, beynəlxalq iqtisadi münasibətlər sisteminin tənzimlənməsi, ciddi siyasi məzmun kəsb edən qərarların qəbuluna təsirsiz ötüşməyən qlobal iqtisadi proseslərin nəzarətdə saxlanması, aparıcı dünya dövlətləri arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, nəhəng şirkətlər arasında əlaqələrə körpü salınması, qarşılıqlı sərmayələrin təşviqi baxımından yaxşı imkanlar açır.

Foruma, bir qayda olaraq, iqtisadi cəhətdən inkişaf etmiş və yaxud özünün iqtisadi yüksəliş mərhələsini yaşayan, qlobal iqtisadi-siyasi proseslərə nüfuz imkanları ilə seçilən, beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm rol oynayan dövlətlər dəvət alırlar. Seçimdə toplantıya qatılaraq yeni iqtisadi əməkdaşlıq imkanları, münbit və etibarlı biznes mühiti axtaran şirkətlərin maraqları da həlledici rol oynayır. Bu baxımdan, Davos Forumunun Azərbaycana olan hədsiz marağı bir sıra reallıqlarla şərtlənir. Sürətlə inkişaf edən, qlobal böhran şəraitində qeyri-neft sektorunun 9,7%-lik artımına nail olan, sosial-infrastruktur baxımından yeniləşən, liberal biznes və sərmayə mühiti ilə seçilən Azərbaycan Ümumdünya İqtisadi Forumunun favoritlərindən birinə çevrilib.

Ümumdünya İqtisadi Forumunun Bakıda rəsmi tərəfdaş elan edərək sıx əməkdaşlıq etdiyi Azərbaycan Marketinq Cəmiyyətinin sədri Rəhim Hüseynov qəzetimizə açıqlamasında bildirib ki, Davos Forumunun Bakıda toplantısının keçirilməsi Azərbaycanın regiondakı rolunun və iqtisadi potensialının yüksək dəyərləndirildiyinə dəlalət edir. İqtisadçı ekspertin fikrincə, respublikamızın hər il qurumun «Qlobal Rəqabətlilik İndeksi» üzrə tərtib etdiyi reytinq cədvəlində bir neçə pillə irəliləməsi qurumun Bakıda xüsusi toplantı keçirilməsi ilə bağlı qərarına təsirini göstərib: «Dünya İqtisadi Forumu dünyanın ciddi və nüfuzlu iqtisadi-işgüzar mərkəzlərindən biridir. Təşkilat müxtəlif kriteriyalar əsasında hər bir ölkənin rəqabətqabiliyyətlilik səviyyəsini öyrənir. Forumun reytinq cədvəllərinin mötəbərliliyi dünyada tam tərəddüdsüz qəbul olunur. Dünya İqtisadi Forumunun ənənəvi «Qlobal Rəqabətlilik İndeksi»nə (2012-2013) görə Azərbaycanın dünyanın 140 ölkəsi arasında 46-cı yeri tutması və ötən ilə nisbətən 9 pillə irəliləməsi qurumun ekspertləri tərəfindən ölkəmizdə biznes mühitinin liberallaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi kimi dəyərləndirilir. Son illərdə ölkədə biznesə başlama prosedurlarının sadələşdirilməsi, ümumilikdə yerli və xarici sahibkarlar üçün daha əlverişli mühitin yaradılması istiqamətində mühüm işlər görülüb. Sahibkablıq subyektlərinin «bir pəncərə» sistemi ilə qeydiyyatına başlanması, 2011-2012-ci illərdə fiziki və hüquqi şəxslərin elektron formada, cəmi bir neçə dəqiqə ərzində qeydiyyata alınması son dərəcə mühüm irəliləyişlərdir. Azərbaycan sahibkarlara göstərilən elektron xidmətlər sahəsində bütün region ölkələrini üstələyir. Hesab edirəm ki, Bakı Forumu respublikamızın Avropa ölkələri ilə biznes əlaqələrinin genişlənməsi baxımından daha geniş imkanlar açacaqdır».

Azərbaycanla Ümumdünya İqtisadi Forumu arasında əməkdaşlıq əlaqələrinin ildən-ilə daha da inkişaf etdiyini deyən Rəhim Hüseynov əlavə edib ki, respublikamızın yüksək vəzifəli dövlət məmurları, müxtəlif sahələr üzrə ekspertləri, elmi və özəl dairələrin nümayəndələri Forum tərəfindən təşkil edilən qlobal tədbirə dəvət alıblar: «Dünya İqtisadi Forumu il ərzində müxtəlif tədbirlər keçirir. Bakıda keçiriləcək toplantıda müzakirə olunacaq məsələlər də aktuallığına və miqyasına görə əhəmiyyətli sayıla bilər. Forumda bir çox ölkələrin dövlət və hökumət başçıları, nazirləri, nüfuzlu biznes strukturlarının rəhbərləri iştirak edəcəklər. Belə bir mötəbər tədbirdə Azərbaycanla bağlı xüsusi sessiyanın keçirilməsi dünyanın qlobal iqtisadi güc mərkəzlərinin və fövqəl şirkətlərinin ölkəmizlə əməkdaşlığa hədsiz marağının bir daha təsdiqləyir. Forumu dünyanın bir çox nüfuzlu kütləvi informasiya vasitələrinin işıqlandırması Azərbaycanın biznes və sərmayə mühiti ilə bağlı Avropada daha aydın təsəvvürlərin formalaşmasına, ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcminin artmasına əlavə təkan verəcək».

**S.MUSTAFAYEV**

# Qabaqcıl dəniz dövlətlərinin təcrübələri öyrənilir



Mart ayında Azərbaycan Vergilər Nazirliyinin nümayəndə heyəti Türkiyə Maliyyə Nazirliyinin İstanbul Vergi Dairəsi Başkanlığının dəvəti ilə bu şəhərdə olmuşdur. Səfərin məqsədi gəmiçilik şirkətlərinə tətbiq edilən vergilər və güzəştlər üzrə normativ hüquqi bazanın öyrənilməsi sahəsində qabaqcıl dəniz dövlətləri ilə təcrübə mübadiləsinin aparılması olmuşdur. Ölkəmizin təmsilçiləri səfər çərçivəsində Türkiyə Cümhuriyyəti Nəqliyyat, Dənizçilik və Xəbərləşmə Nazirliyinin İstanbul Liman Başkanlığı, eləcə də Vergi Dairəsi Başkanlığının təşkil etdikləri konfransda iştirak etmişlər. Konfrans zamanı adıçəkilən Başkanlığın Gəlir və Kurumlar Vergileri Müdürlüyünün rəhbəri Mehmet Zengin Türkiyədə gəmiçiliklə əlaqədar mülkiyyət, habelə vergitutma məsələləri ilə bağlı ətraflı məlumat vermişdir.

Tədbirdə Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Həmid Zeynalov və Hüquq idarəsinin rəis müavini Zeynalabdin Məmmədzadə, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası Aparatının rəhbəri Əhməd İsmayılov, Dövlət Dəniz Administrasiyası Gəmi standartlarına nəzarət və lisenziyalaşdırma şöbəsinin müdiri Rəsul Həsənov iştirak etmişlər.

# Sadələşdirilmiş vergi bəyannaməsi

## Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

**Əvvəli ötən sayımızda**

**Sətir 1.3 «Ehtiyatlar» (sətir 1.3.1, 1.3.2, 1.3.3, 1.3.4)**

**«dövr ərzində daxil olmuşdur» sütununda:** 1.3.1-ci sətir üzrə 40 №-li hesabın, 1.3.2-ci sətir üzrə 41 №-li hesabın, 1.3.3-cü sətir üzrə 20 №-li hesabın, 1.3.4-cü sətir üzrə 10 və 12 №-li hesabın debet dövriyyəsi üzrə illik yekun məbləği, yəni hesabat ili ərzində müvafiq olaraq daxil olmuş hazır məhsulun, malların, əsas istehsal həcminin, xammal və materialların, azqiymətli əşyaların (həmin sətirlərin adlarına müvafiq olan kateqoriyalar üzrə) dəyəri əks etdirilir. Məsələn, DB40 - KR20, DB41 - KR60, DB20 - KR10, DB20 - KR12, DB 20 - KR26, DB20 - KR60, DB10 - KR60, DB12 - KR60, DB10 - KR80 ikili yazılışları. Lakin 10, 12, 20, 40, 41 №-li hesablar üzrə bir maddi məsul şəxsdən digər maddi məsul şəxsə eyni adlı aktivlərin verilməsi ilə bağlı ikili yazılışlar nəticəsində yaranan dövriyyələr müvafiq sətirlərin «dövr ərzində daxil olmuşdur» sütununda nəzərə alınmamalıdır. Məsələn, DB10 - KR10, DB41 - KR41.

**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** _Təqdim edilmişdir:_ Satılan və əvəzsiz verilən hazır məhsulun, malların, əsas istehsal həcminin, xammal və materialların, azqiymətli əşyaların uçot dəyəri, yəni həmin aktiv mədaxil olunarkən onun qiymətləndirilən dəyəri (müvafiq sətirlər üzrə 10, 12, 40, 41 №-li hesabın kredit dövriyyəsinin tərkibindən satılan və əvəzsiz verilənlərin uçot dəyəri) əks etdirilir. 20 №-li hesabda adətən satış əməliyyatları aparılmadığına görə 1.3.3-cü sətir üzrə «dövr ərzində daxil olmuşdur» sütunundakı xana boş saxlanılır. _Silinmişdir:_ 1.3.3-cü sətir üzrə məhsul, iş, xidmət istehsalına faktiki sərf olunan bütün xərclərin hesablanmış maya dəyəri (20 №-li hesabın kredit dövriyyəsi), 1.3.4-cü sətir üzrə əsas istehsalatda, inzibati və digər bütün istiqamətlərdə faktiki istifadə olunan xammal və materialların, azqiymətli əşyaların uçot dəyəri, yəni həmin aktivlərin mədaxil olunandakı qiymətləndirilən dəyəri (10, 12 №-li hesabın kredit dövriyyəsi) əks etdirilir. 1.3.1 və 1.3.2-ci sətirlər üzrə adətən «silinmişdir» xanasında məbləğlər göstərilmir. Çünki hazır məhsul və mallar satılmaq məqsədi daşıyır və ya onlar xarab ola (ləğv edilə) bilərlər. Mallar və hazır məhsullar yalnız digər aktivləri uçota alan (10,12 və ya 20 №-li) hesablara yerini dəyişməklə uçota alındığı halda onların dəyəri «silinmişdir» xanasında əks etdirilə bilər. Məsələn, DB10 - KR41, DB20 - KR40. _Ləğv edilmişdir:_ Ləğv edilən, xarab olan və itən müvafiq aktivin uçot dəyəri, yəni həmin aktivlərin mədaxil olunandakı qiymətləndirilən dəyəri (müvafiq sətirlər üzrə 10, 12, 20, 40, 41 №-li hesabın kredit dövriyyəsinin tərkibindən ləğv edilən, xarab olan və itənlərin uçot dəyəri) əks etdirilir.

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Malsatanlardan xammal və materiallar alınmışdır | 10 | 60 | 2700 |
| Malsatanlardan azqiymətli əşyalar alınmışdır | 12 | 60 | 200 |
| İstehsalatda material istifadə olunmuşdur | 20 | 10 | 2900 |
| İstehsalatda azqiymətli əşyalar istifadə olunmuşdur | 20 | 12 | 220 |
| İstehsalatda kənar təşkilatların xidmətlərindən istifadə olunmuşdur | 20 | 60 | 2500 |
| İstehsalatda işçilərə əməkhaqqı hesablanmışdır | 20 | 70 | 3000 |
| İstehsalatdan anbara hazır məhsul qəbul edilmişdir | 40 | 20 | 8000 |
| Alıcılara satılmış malın maya dəyəri | 46 | 41 | 450 |
| Alıcılara satılmış hazır məhsulun maya dəyəri | 46 | 40 | 9500 |
| Alıcılara satılmış azqiymətli əşyaların maya dəyəri | 46 | 12 | 130 |
| Xarab olmuş materiallar aktlaşdırılaraq ləğv edilmişdir | 80 | 10 | 200 |

***Bir misal.*** Vergi ödəyicisinin hesabat ilində əməliyyatları aşağıdakı kimi olmuşdur *(bax: cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax cədvəl: 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax cədvəl: 3)*.

**Ardı növbəti sayımızda**

Cədvəl 2

| Hesab №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| 10 | Xammal və materiallar | 1500 | | 2700 | 3100 | 1100 | |
| 12 | Azqiymətli əşyalar | 400 | | 200 | 350 | 250 | |
| 20 | Əsas istehsal | 0 | | 8620 | 8000 | 620 | |
| 40 | Hazır məhsul | 3400 | | 8000 | 9500 | 1900 | |
| 41 | Mallar | 700 | | 0 | 450 | 250 | |
| | Cəmi ehtiyatlar üzrə | 6000 | | 19520 | 21400 | 4120 | |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 1.3.1 Hazır məhsul | 8000 | Təqdim edilmişdir: 9500 | 1900 |
| | | Silinmişdir: | |
| | | Ləğv edilmişdir: | |
| 1.3.2 Mallar | | Təqdim edilmişdir: 450 | 250 |
| | | Silinmişdir: | |
| | | Ləğv edilmişdir: | |
| 1.3.3 Bitməmiş istehsal | 8620 | Təqdim edilmişdir: | 620 |
| | | Silinmişdir: 8000 | |
| | | Ləğv edilmişdir: | |
| 1.3.4 Sair ehtiyatlar | 2900 | Təqdim edilmişdir: 130 | 1350 |
| | | Silinmişdir: 3120 | |
| | | Ləğv edilmişdir: 200 | |

## vergi təqvimi

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | | | | | |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

1 aprel - «1», «2», «5» və «7».
15 aprel - «(1) və (2)».
22 aprel - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

_Birinci metod:_ Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

_İkinci metod:_ Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilndə fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir. Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür. «Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Audit

# Alınacaq mallara (işlərə, xidmətlərə) görə əvvəlcədən avans ödənişi həyata keçirilərkən ƏDV-nin əvəzləşdirilməsi

***Mal (iş, xidmət) təqdim edilənədək qabaqcadan avans ödənişi həyata keçirmək istəyən gələcək alıcının (gələcəkdə malı, işi, xidməti qəbul etməli olan alıcı və ya sifarişçi) satıcıdan (icraçıdan) elektron vergi hesab-fakturası tələb etməsi məqsədəmüvafiq deyildir.***

Vergi Məcəlləsinin 176.3-cü maddəsində göstərilir ki, vergi ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur. Yəni mal göndərilən, iş görülüb təhvil verilən, xidmətlər təhvil-qəbul edilən günədək olan müddətdə malın alıcısına, işlərin və xidmətlərin sifarişçisinə elektron vergi hesab-fakturasının verilməsi Vergi Məcəlləsində nəzərdə tutulmamışdır. Belə aydın olur ki, alınacaq mallara (işlərə, xidmətlərə) görə əvvəlcədən avans ödənilməsi məqsədilə satıcıdan (xidmət göstərəndən, iş görəndən) elektron vergi hesab-fakturasının alınması qanunazidd hesab edilə bilər.

Lakin Vergi Məcəlləsinin digər bir maddəsində (166.2-ci maddədə) isə göstərilir ki, ödəmə bu Məcəllənin 166.1.1-ci və ya 166.1.2-ci maddələrində göstərilən müddət başlananadək həyata keçirildikdə ödəmədən sonrakı 5 gün ərzində ƏDV-nin elektron hesab-fakturası verilmirsə, vergi tutulan əməliyyat ödəmə həyata keçirildikdə aparılmış sayılır. Bu maddənin məzmununda «ƏDV-nin elektron hesab-fakturası verilmirsə» ifadəsi isə gələcəkdə mal almalı (işi, xidməti qəbul etməli) olan vergi ödəyicilərini avans ödənişi həyata keçirməsi üçün satıcıdan elektron vergi hesab-fakturası tələb etməyə vadar edə bilər. Yəni vergi ödəyicisi düşünə bilər ki, avans ödənişi zamanı ƏDV-nin elektron vergi hesab-fakturası verilə bilər.

Burada Məcəllənin 176.3-cü və 166.2-ci maddələrinin ziddiyyət təşkil etdiyini səhv olaraq düşünənlər də ola bilər. Əslində isə bu, belə deyil. Nəzərə almaq lazımdır ki, bu maddə avansı alan satıcının vergi tutulan əməliyyatının vaxtını müəyyən etmək üçün nəzərdə tutulub. Avansı ödəyən vergi ödəyicisi isə əvəzləşdirməni Məcəllənin digər maddələrinin tələblərinə əsasən həyata keçirməlidir.

Vergi Məcəlləsinin 175.1, 175.1.1, 176.1 və 176.3-cü maddələrinin tələblərindən aydın olur ki, elektron vergi hesab-fakturası malları, işləri və ya xidmətləri artıq qəbul edən (keçmiş zamanlarda qəbul etmiş) şəxsə verilir və büdcəyə ödəmələr müəyyən edilərkən əvəzləşdirilən ƏDV məbləği göndərilmiş mala, görülmüş işə və göstərilmiş xidmətə görə alınmış vergi hesab-fakturaları üzrə nağdsız qaydada ödəmələr üzrə ƏDV-nin depozit hesabına və bu hesab daxilində aparılan əməliyyatlarda ödənilən vergi məbləği sayılır.

Deməli, satıcı (icraçı) ona avans ödəyən alıcıya (sifarişçiyə) qanuni əsaslar olmadığına görə, elektron vergi hesab-fakturası verə bilmir. Satıcı avansı gələcəkdə təqdim edəcəyi mallar (işlər, xidmətlər) üçün almasına baxmayaraq, avansı aldığı təqvim ayında ƏDV-ni büdcəyə hesablamağa borcludur.

Lakin avansı ödəyən (gələcəkdə ola bilsin ki, 5-6 aydan sonra malı, işi, xidməti almalı olan) alıcı avans ödədiyi təqvim ayında satıcıdan elektron vergi hesab-fakturasını almadığına (qanunla ala bilmədiyinə) görə, həmin təqvim ayında ödədiyi avansa uyğun ƏDV-nin məbləğini əvəzləşdirmək hüququndan məhrum olur. Avans ödəyən alıcı-vergi ödəyicisi satıcı-vergi ödəyicisinin ƏDV-nin depozit hesabına avansın məbləğinə müvafiq köçürdüyü ƏDV-nin məbləğini yalnız satıcıdan malı (işi, xidməti) qəbul etdiyi təqvim ayında və ya sonrakı təqvim aylarında elektron vergi hesab-fakturası əldə etməklə əvəzləşdirmək hüququ əldə edə bilər.

Sual yarana bilər ki, satıcı (sifarişçi) mal göndərilən, iş görülüb təhvil verilən, xidmətlər təhvil-qəbul edilən günədək olan müddətdə malın alıcısına, işlərin və xidmətlərin sifarişçisinə vergi hesab-fakturası verərsə hansı neqativ hallar və ya vergi məsuliyyəti yarana bilər?

Vergi Məcəllsinin 176.4-cü maddəsində göstərilir ki, «Müəyyən edilmiş qaydada sifariş edilməyən, çap edilməyən və tərtib edilməyən elektron vergi hesab-fakturaları bu Məcəllənin 175-ci maddəsinin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas vermir və bu Məcəllənin digər maddələrində göstərilən müddəalardan asılı olmayaraq, aparılan əvəzləşdirilmə etibarsız hesab edilir. Bu maddənin məzmunundan aydın olur ki, müəyyən edilmiş qaydada tərtib edilməyən elektron vergi hesab-fakturaları verginin əvəzləşdirilməsinə əsas vermir və aparılan əvəzləşdirilmə etibarsız hesab edilir.

Qeyd edək ki, ödədiyi avansa müvafiq ƏDV ödəyən vergi ödəyiciləri istər bank ödəniş tapşırığında, istərsə də ƏDV-nin depozit hesabı üzrə elektron ödəniş sənədlərində ödənişə əsas kimi satıcı (podratçı) ilə bağladığı müqavilənin və ya hesab-fakturanın məlumatlarını əks etdirə bilər.

# Beynəlxalq velosiped turunun təqdimatı olmuşdur

*Mart ayının 29-da «Hyatt Ragency» mehmanxanasında may ayının 1-dən 5-dək ölkəmizdə keçiriləcək, ulu öndər Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş «TOUR d'AZERBAIDJAN» beynəlxalq velosiped turunun təqdimatı olmuşdur. Dünyanın bütün qitələrinin 40-dan çox ölkəsini təmsil edən 25 komandanın, bütövlükdə 500 nəfərdən çox xarici qonağın iştirak edəcəyi bu turnir Azərbaycan Velosiped İdmanı Federasiyası, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə təşkil olunur. Turun açılışı və iştirakçı komandaların təqdimatı aprel ayının 30-da Dənizkənarı Milli Parkda olacaqdır.*



Tədbiri giriş sözü ilə açan Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, beynəlxalq veloturun təşkilat komitəsinin sədri Sahib Ələkbərov ölkə başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illər ölkədə velosiped idmanının inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, Federasiyanın rəhbərliyi dəyişdirildikdən sonra onun fəaliyyətində nəzərəçarpacaq dönüş baş vermiş, idmanın bu növünün maddi-texniki bazasının gücləndirilməsi, Federasiyanın beynəlxalq əlaqələrinin genişləndirilməsi, əhali, xüsusən də gənclər arasında velosiped idmanına marağın artırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, magistral yollarda, şəhər və qəsəbələrdə velosipedçilərin təhlükəsiz hərəkətini təmin etmək üçün Federasiya rəhbərliyi ötən il müvafiq orqanlara müraciət ünvanlayaraq velosipedçilər üçün xüsusi yolların ayrılması təklifi ilə çıxış etmişdir. Hazırda respublika «Velotrek»ində əsaslı yenidənqurma işləri aparılır və bu il onun velosipedçilərin istifadəsinə verilməsi nəzərdə tutulur. Burada ekstrim velosiped idmanının inkişafı, BMX idman növü ilə məşğul olmaq istəyənlər üçün də şəraitin yaradılması nəzərdə tutulur. Eyni zamanda, Səbail rayonunda - Şıx çimərliyi ilə üzbəüz dağlıq ərazidə yeni velosiped parkı salınır və aprel ayının sonunda həmin parkda işlərin birinci mərhələsinin başa çatdırılması planlaşdırılır. Burada 40 min kvadratmetrdən çox yola asfalt döşənib, BMX-çilər üçün uzunluğu 5 kilometrə çatan yeni dağ yolları çəkilib. Müxtəlif tədbirlərin təşkil olunması üçün xüsusi meydançalar yaradılıb, 20 mindən çox ağac və bəzək kolları əkilib.

Federasiyanın vitse-prezidenti məlumat vermişdir ki, UCI Europe Tour çərçivəsində 2.2 kateqoriyalı veloyürüş olan «TOUR d'AZERBAIDJAN» Bakı şəhərində start götürəcək və ölkənin yeddi rayonunun ərazisindən keçəcəkdir. Xatırladılmışdır ki, 2012-ci ilin may ayında Azərbaycanda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq velotur 23 yaşınadək idmançılar arasında keçirilmişdisə, budəfəki yarışda yalnız peşəkar velosipedçilər iştirak edə bilərlər. Təşkilat komitəsinin sədri 3 ay əvvəl yaradılmış ilk milli velosiped komandası olan «Synergy Baku Cycling Project»in qısa müddət ərzində qazandığı nailiyyətlər barədə də mətbuat nümayəndələrinə məlumat vermişdir.

Sahib Ələkbərov ölkə jurnalistlərini Azərbaycanda keçiriləcək beynəlxalq turun təbliğində fəallıq göstərməyə çağıraraq bildirmişdir ki, bu, ölkəmizin dünya səviyyəsində tanıdılması və onun idman nüfuzunun yüksəldilməsi baxımından gözəl bir imkandır. O da vurğulanmışdır ki, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün mətbuatda bu tur geniş işıqlandırılmalıdır. «Evrosport» kompaniyası ilə imzalanan müqavilə əsasında turun təbliği məqsədilə hazırlanmış reklam çarxı artıq martın sonlarından başlayaraq gündə 3-4 dəfə nümayiş olunur. Bundan başqa, turun özünün saytı yaradılıb və qısa müddətdə müxtəlif ölkələrdən həmin sayta 200 mindən çox insan daxil olub. Təkcə Türkiyədən sayta daxil olanların sayı 110 min nəfəri keçib. Bütün bünlar göstərir ki, beynəlxalq velotura dünyada maraq böyükdür.

Turun təşkilat komitəsinin üzvü, Almaniyanın «Freunde event Logistic GmBH» şirkətinin direktoru Albrext Röeder veloturun marşrutları barədə məlumat vermişdir. Qeyd edilmişdir ki, yarışın 1-ci mərhələsi may ayının 1-də Heydər Əliyev Mərkəzinin yanından start götürərək ümummilli liderin adını daşıyan prospektlə metronun «Koroğlu» stansiyası arasında 11 dəfə dövrə vurmaqla, yenə Heydər Əliyev Mərkəzinin yanında başa çatacaq. Marşrutun ümumi uzunluğu 157 kilometrdir.

Növbəti gün velosipedçilər yeni yaradılmış velosiped parkından start götürərək Böyük Qafqaz sıra dağları istiqamətində hərəkətə başlayacaq və 183 kilometr məsafə qət etdikdən sonra İsmayıllı şəhərindəki Olimpiya Kompleksinin qarşısında finiş xəttini keçəcəklər. May ayının 3-də yarış iştirakçıları Qəbələ şəhərindən start götürərək Oğuz rayonundan keçməklə Şəki şəhərinə yollanacaq, oradan isə yenidən başlanğıc nöqtəyə qayıdacaqlar. Yarışın bu mərhələsinin uzunluğu 165 kilometrdir.

May ayının 4-də tur iştirakçıları Qəbələdən start götürərək İsmayıllı rayonundan keçməklə Şamaxı şəhərinə yollanacaq, 116 kilometr məsafə qət edib dəniz səviyyəsindən təxminən 1450 metr hündürlükdə yerləşən Pirqulu rəsədxanasının yaxınlığında, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin qarşısında finiş xəttini keçəcəklər.

146 kilometr uzunluğu olan son mərhələ «Azadlıq» meydanından başlayıb Bakı şəhərinin mərkəzi küçələri və prospektlərindən keçərək Hökumət evinin qarşısında başa çatacaqdır.

Təqdimat mərasiminin sonunda KİV nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

**S.MUSTAFAYEV**

beynəlxalq panoram

## Türkiyə 2013-cü il üçün vergi hədəfini açıqladı

Ölkənin maliyyə naziri Mehmet Şimşək Gəlir İdarəsinin Bolu şəhərində keçirilmiş «İllik qiymətləndirmə və hədəflərin müəyyənləşdirilməsi»nə həsr olunmuş toplantıda iştirak etmişdir. «Ölkəni irəli aparmaq sahəsində qarşımıza qoyduğumuz hədəflərə çatmaq üçün sağlam vergi gəlirlərinə ehtiyacımız var», - deyən maliyyə nazirinin sözlərinə görə, 2013-cü ildə «...büdcəyə 318 milyard lirə (138 milyard manat) vergi gəliri cəlb etmək hədəfimiz var. Bu hədəfə çatmağımız lazımdır. Ölkəmizdəki xərclərin əsas mənbəyi sağlam vergi gəlirləri olmalıdır. Heç bir ölkə üstünə borc götürüb hədəf kimi müəyyənləşdiridiyi səviyyəyə çata bilməz. Quyuya su tökməklə quyu sulu olmaz. Başqasından aldığımız pulla işi irəli apara bilmərik. Ölkəmizin təhsil, səhiyyə, altqurum və araşdırma sahələrində son 10 ildə qət etdiyi məsafə hər kəsə məlumdur. Ancaq biz gəldiyimiz nöqtəni yetərli saymırıq».

Maliyyə naziri vergi sahəsində könüllü əməletməyə üstünlük verdiklərini, bu sahədə texnoloji imkanlardan lazımınca istifadə edildiyini vurğulamışdır: «Elektron vergi dairəmiz var, bəyannamələrin, demək olar ki, 100%-i elektron şəkildə qəbul edilir. Hədəfimiz heç bir şəkildə vətəndaşı vergi orqanının ayağına gətirməməkdir. Mümkün olduqca bütün xidmətləri ya vətəndaşın ayağına gətirməli, ya da bu imkanı elektron formada yaratmalıyıq. Bizim üçün vətəndaş məmnuniyyəti əsasdır».

## Böyük Britaniyada vergi dərəcələrinin azaldılması nəzərdə tutulur

Böyük Britaniyanın Krallıq vergi və gömrük xidmətinin qiymətləndirməsinə görə, maliyyə naziri Corc Osbornun təqdim etdiyi gələn il üçün büdcə planında əsas diqqət «vergi bərabərliyi və monetar siyasətin fəallığı» prinsiplərinin möhkəmləndirilməsinə yönəldilib.

Büdcə planında nəzərdə tutulan əsas dəyişikliklər içərisində fərdi vergi ödəyiciləri üçün vergi tutulmasının minimal həddinin 10 min funt-sterlinqə qaldırılması da var. Bu, praktiki olaraq 2014-cü ilin aprelindən (maliyyə ilinin başlanğıcından) ölkənin təxminən üç milyon vətəndaşının vergidən azad olunacağı deməkdir.

Bundan əlavə, hökumətin müzakirəyə çıxarmağı planlaşdırdığı məsələlər arasında muzdlu işçilərin əməkhaqqından tutulan gəlir vergisinin yığılması və ona nəzarət mexanizmlərinin təkmilləşdirilməsi də önəmli yer tutacaq. Ölkə rəhbərliyinin mövqeyinə görə, bu vergi növü üzrə hesabatların hazırlanması sistemi sadələşdirilməlidir.

2015-ci ildən başlayaraq korporativ vergi ödəyiciləri üçün gəlir vergisinin dərəcəsi 22%-dən 21%-ə, 2016-cı ildə isə 20%-ə endirilməsi nəzərdə tutulur.

Hökumətin planına vergidən yayınmaya və «aqressiv vergi planlaşdırması» təcrübəsinin məhdudlaşdırılmasına qarşı mübarizənin gücləndirilməsi də daxildir. Hesablamalara görə, bu addımın atılması hər il ölkə büdcəsinə əlavə 3 milyard funt-sterlinqdən artıq vəsait cəlb etməyə şərait yarada bilər.

## Amerika korporasiyaları milyardlarla dolları xaricə daşıyırlar

«Forbes»in hesabatına görə, Amerikada iri biznesi təmsil edən ən azı 92 korporasiya 2012-ci ildə xaricdəki törəmə şirkətlərinin aktivlərini artırmışlar və hər bir şirkət üçün bu artımın məbləği 500 milyon dollardan az olmamışdır. Hesabat müəlliflərinin qənaəti belədir ki, iri ABŞ korporasiyalarının keçən il ölkə xaricində gizlədilmiş gəlirlərinin məbləği 229 milyard dollardan artıq ola bilər. 2012-ci ildə xarici hesablarda aktivlərinin miqdarı daha çox artmış şirkətlər sırasında Apple (28 milyard dollar), Microsoft (16 milyard dollar) və Pifzer (10 milyard dollar) öndə gəlir.




Ekspertlərin fikrincə, son dörd ildə ABŞ-ın ən iri 48 korporasiyasından hər birinin aktivləri orta hesabla 3 milyard dollar artıb. Hesabatda göstərilir ki, istinad olunan statistika o şirkətlərin gəlirlərinə aiddir ki, onlar pulları bilavasitə ABŞ ərazisində qazanır və investisiya, yaxud işgüzar məqsədlərlə qoyulan kapital şəklində xaricə daşıyırlar. Burada isə yeganə məqsəd vergi optimallaşdırılmasıdır. Başqa sözlə, şirkətlər hər vəchlə ölkədə ödəməli olduqları vergilərin məbləğini minimallaşdırmağa can atırlar.

krossvord



**Yuxarıdan aşağı:**
1.Qədim yunan mifologiyasında ədalət ilahəsi; 2.ABŞ-ın məşhur model və aktrisası; 3.Bakı şəhərini təmsil edən peşəkar futbol klubu; 5.Türk və altay mifologiyasında ilahə adı; 6.Türk, altay və qırğız əfsanələrində bəhs edilən şüursuz kölə, Çingiz Aytmatovun «Gün var əsrə bərabər» romanında surət; 7.Qiymətli mineral. Dərini cavanlaşdırmaq, qırışıqları hamarlamaq qabiliyyətinə malikdir və böyrək ağrılarında əvəzedilməzdir; 8.Qədim su nəqliyyatı vasitəsi, su nəqliyyatının ən mükəmməl növü; 14.Kiçik buz kristallarından ibarət atmosfer yağıntısı; 15.Bürclərdən biri; 19.Şərqi Afrikada dənizə çıxışı olmayan ölkə; 20.Yəhudilərin və xristianların ən mühüm bayramlarından biri; 21.Gülçiçəklilər sırasından dekorativ ağac növü. Yaponiya və yapon mədəniyyətinin tanınmış rəmzidir; 25.Birgə iş görmək və ya kollektiv fəaliyyət göstərmək üçün könüllü icma; 26.Yaponiyanın Tokusima prefekturasında yerləşən şəhər; 27.İçki məclisində söylənən nitq.

**Soldan sağa:**
1.Pianoçu, Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatının adı; 4.İranın rəsmi təqviminin *(Hicri şəmsi)* on birinci ayı; 9.Azərbaycanda tibb təhsili və səhiyyənin təşkilatçısı, respublikada cərrahlıq elmi məktəbinin banilərindən biri - Topçubaşov...; 10.Çətənəkimilər fəsiləsinə aid bitki cinsi; 11.Yarımkeçirici cihaz; 12.Pendir *(rusca)*; 13.Azərbaycan filosofu, astronomu, riyaziyyatçısı, tarixçisi, maliyyəçisi və hüquqşünası. Ensiklopediyaçı alim, dövlət xadimi (1201-1274); 16.Əsasən tutdan hazırlanmış şəkərli, müalicəvi əhəmiyyətlərə malik qatı maye; 18.Lissabondan sonra Portuqaliyanın ikinci böyük şəhəri; 22.Azərbaycan müğənnisi, bəstəkarı. Tanınmış xanəndə və pedaqoqun adı (1928-1987); 23.Türk, altay və monqol xalq mədəniyyətində şaman; 24.Uzunmüddətli dairəvi müdafiə üçün hazırlanmış, daimi qarnizonu, silah ehtiyatları olan və müstəqil idarə edilən strateji əhəmiyyətli tikili; 28.1964-cü ildə yaradılmış Belarus futbol klubu; 29.Qazaxıstanda şəhər; 30.Roma imperiyası Pannoniyanın şimal-şərqində yerləşən qədim şəhər. Şəhərin qalıqları indiki Budapeştdə *(Macarıstan)* yerləşir; 31.«Avropanın imperatoru» titulunu qazanmış Hun imperiyasının hökmdarı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Torpaq; 2.Lassi; 3.Timpton; 4.Yod; 5.Aqrız; 6.Emissar; 7.Səməni; 11.Jerar *(Depardye)*; 13.Konsern; 15.Şumaxer; 16.Plafon; 17.İnnabı; 18.Dandi; 20.Zurna; 22.Lük *(Besson)*.

**Soldan sağa:** 1.Tolstoy *(Lev Nikolayeviç)*; 5.Avers; 8. Ris; 9.Modernizm; 10.Ajiotaj; 12.Mali; 14.Narış; 16.Plov; 19.Ramazan; 21.Freyndlix *(Alisa)*; 23.Rza *(Əfqanlı)*; 24.Nansi; 25.Karpatı.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Boksçumuz beynəlxalq turnirin qalibi olmuşdur

Ukraynanın Xerson şəhərində Nikolay Manqerin xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnirə yekun vurulmuşdur. Azərbaycanın milli komandası yarışda 1 qızıl və 1 bürünc medal qazanmışdır.

Turnirdə 56 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavid Çələbiyev bütün rəqibləri üzərində qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Boksçumuz yarımfinalda Ukrayna komandasının üzvü Oleq Prudkini 12:10 hesabı ilə məğlub etmişdir. Finalda isə boksçumuzun rəqibi qırğızıstanlı Meder Mamakeyev olmuşdur. Bu dəfə də daha yaxşı döyüş nümayiş etdirən həmyerlimiz 11:10 hesabı ilə qələbə qazanmışdır.



Turnirdə 91 kiloqramdan yuxarı çəki dərəcəsindəki təmsilçimiz Kamran Mehdiyev isə yarışı üçüncü pillədə başa vurmuşdur. O, yarımfinalda Qazaxıstan idmançısı Jan Kosobutskiyə uduzmuşdur.

Beləliklə, millimiz 1 qızıl və 1 bürünc medalla ümumkomanda hesabında beşinci yeri tutmuşdur.

# Cüdoçularımızın Avropa Kuboku yarışlarında uğurlu çıxışı

***Ukraynanın paytaxtı Kiyevdə yeniyetmələr arasında cüdo üzrə Avropa Kuboku yarışları keçirilmişdir.***

Azərbaycan Cüdo Federasiyasından bildirmişlər ki, yarışda mübarizə aparan milli komandamız 5 medal qazanmışdır. Yarışda İlkin Babazadə (55 kq) qızıl, Rauf Xəlilov (60 kq) gümüş, Natiq Qurbanlı (50 kq), Rüfət Tağızadə (55 kq) və Fəridə Həsənxanova (57 kq) bürünc medal qazanmışlar.

Qeyd edək ki, yaşı 18-dən aşağı olan cüdoçuların mübarizə apardığı turnirdə qitənin 23 ölkəsindən 569 idmançı birincilik uğrunda mübarizə aparmışdır.

# Azərbaycan Dünya Kubokunun mərhələ yarışlarına ev sahibliyi edə bilər

***Martın 30-da ölkəmizdə səfərdə olan Beynəlxalq İdman Qayayadırmanma Federasiyasının (IFSS) vitse-prezidenti Aleksandr Pirantinski Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ilə görüşmüşdür.***

Görüşdə qonağa Azərbaycanın idman sahəsində qazandığı uğurlar, ölkəmizdə təşkil olunan mötəbər yarışlar və Bakının 2020-ci il Yay Olimpiya Oyunlarını keçirməyə namizəd şəhər olduğu barədə məlumat verilmişdir. Bildirilmişdir ki, Azərbaycan 2013-cü ildə qayayadırmanma üzrə Dünya Kubokunun mərhələ yarışlarına ev sahibliyi etmək üçün IFSC-yə müraciət etmişdir. Bu mötəbər yarışın Azərbaycana həvalə ediləcəyinə əminlik ifadə olunmuşdur.

Ölkəmizdə idmana göstərilən dövlət qayğısını yüksək qiymətləndirən A.Pirantinski 2020-ci ildə qayayadırmanmanın Olimpiya Oyunlarının siyahısına salınacağını diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Azərbaycanın gələn il Dünya Kubokunun mərhələ yarışlarına ev sahibliyi etməsi üçün böyük imkanı vardır. Çünki ölkədə yaradılan infrastruktur bunu deməyə əsas verir.

Səfər çərçivəsində A.Pirantinski qayayadırmanma idman növü üzrə hakimlərə, təlimçilərə və idmançılara bir neçə ustad dərsləri keçəcəkdir.

Qeyd edək ki, Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası (FAİREX) 2010-cu ildən Beynəlxalq İdman Qayayadırmanma Federasiyasının üzvüdür.

# Cüdoçularımız iki medalla qayıtdılar

Türkiyənin Samsun şəhərində keçirilən Qran-pri yarışlarında 43 ölkədən 380 cüdoçu mübarizə aparmışdır. Azərbaycan cüdoçusu Vüqar Şirinli (60 kq) dörddəbir finala qədər irəliləsə də sonda bürünc medalla kifayətlənməli olmuşdur. Digər təmsilçimiz Elmar Qasımov (100 kq) isə əvvəlcə türkiyəli İsmayıl Cantezi məğlub etmiş, daha sonra ermənistanlı Hakob Arakelyana qalib gələrək dörddəbir finala adlamışdır. E.Qasımov Beynəlxalq Cüdo Federasiyasının reytinq cədvəlində üçüncü olan çexiyalı Lukas Krpalekə, sonra hollandiyalı dünya çempionu Henk Qrola qalib gəlmişdir. Həlledici görüşdə isə Rusiya təmsilçisi Adlan Bisultanovla qarşılaşan cüdoçumuz gümüş medalla kifayətlənmişdir. Beləliklə, cüdo yığmamız Türkiyədə 1 gümüş və 1 bürünc medala sahib olmuşdur.

# Sərbəst döyüş növləri üzrə açıq Bakı turniri

*Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən «Aura» İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş sərbəst döyüş növləri üzrə açıq Bakı turniri keçirilmişdir.*

BŞGİBİ-nin mətbuat xidmətinin yaydığı xəbərə görə, turnirdə Maştağa Olimpiya İdman Kompleksinin, «Emir», «Aura», «Sabunçu-Sport» idman klublarının və Lənkəran idmançıları ilə yanaşı Gürcüstan, Dağıstan və Çeçenistan təmsilçiləri də iştirak etmişlər. Turnirin nəticələrinə görə, komanda hesabında «Sabunçu-Sport» birinci, «Aura» ikinci, «Dərbənd» komandası isə üçüncü olmuşlar. Qalib idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və qiymətli hədiyyələrlə yanaşı, Beynəlxalq Döyüş Növləri Assosiasiyasının təsis etdiyi xüsusi kəmərlərlə təltif olunmuşlar.

mozaika

# Elm ehkam tanımır

araşdırma

Kainatın yaranmasına səbəb olmuş Böyük Partlayış anından sonra baş verən proseslərin elmi araşdırması sensasiyalı nəticə verib. Kainatın indiyə qədər qəbul etdiyimizdən 80 milyon il daha yaşlı olduğu aşkarlanıb. Avropa Kosmik Agentliyinin (ESA) alimlərinin apardıqları araşdırmanın nəticələrinə görə, kainatın 13,81 milyard yaşı var. Bununla yanaşı, alimlər kainatla bağlı «necə başlandı?», «nədən yarandı» və «hara gedir?» suallarına cavab tapmağa çalışıblar. Araşdırmaya Britaniyadakı Kembric Universitetinin professoru George Estafiu başçılıq edib. O, Planck kosmik teleskopu ilə çalışan qrupun adından bəyan edib ki, kainatın ümumi xəritəsinin hazırlanması prosesi artıq başa çatmaq üzrədir.

Alim 2009-cu ildə kosmosa göndərilmiş Planck teleskopu ilə relikt şüalanmanın intensivliyi və xüsusiyyətləri barədə dəqiq məlumatlar əldə olunduğunu bildirib.

Alınan göstəricilər kainatın konkret anda genişlənmə sürətini müəyyənləşdirən Habll əmsalı dəqiqləşdirməyə imkan verib. İndi həmin əmsal 1 meqaparsekə 67,15 km/saniyə həddindədir. Başqa sözlə desək, aralarında 3,26 milyon işıq ili olan iki obyekt kainatın genişlənməsi nəticəsində bir-birindən 67,15 km/saniyə sürətlə aralanır.

Alimlərin qənaətinə görə, araşdırma zamanı kainatın yaşı və ya qara materiya əsas məsələ deyildi.

Onlar belə hesab edirlər ki, kainatın müxtəlif «yarımkürə»lərindəki temperatur fərqlidir. Bu isə kainatın izotrop olması, yəni bütün istiqamətlərdə fiziki göstəricilərinin sabitliyi barədə ehkamları alt-üst edir. Halbuki bu ehkamlar müasir astronomiya və kosmologiyanın təməli sayılırdı.

Kainatın cənub yarımkürəsi və ya ekliptikası şimalla müqayisədə daha isti relikt şüalanma verir.

Dəyəri 900 milyon dollar olan Planck kosmik teleskopu bu ilin sonunadək tədqiqatlara davam edəcək.

# Velosiped sürməyin sağlamlıq üçün faydaları

sağlam həyat tərzi

Velosiped sürməklə artıq çəkidən də asanlıqla xilas olmaq mümkündür. Bir saat velosiped sürən şəxs təxminən 300 kilokalori atır. Hər gün yarım saat velosiped sürmək 11 kiloqram piyi əritməyə imkan verir.

Böyük Britaniyanın Birminhem Universitetinin alimi Ceyms Timmons demişdir ki, intensiv bədən tərbiyəsi metodu ilə həftədə üç dəfə məşğul olmaqla, hər gün idman edənlərin sağlamlığına nail olmaq mümkündür. Həmin metoda görə, bir neçə dəqiqə ərzində bədəni gücə salmadan velosipedin pedalları hərəkət etdirilir. İyirmi saniyə dincəldikdən sonra velosipedi 20 saniyə çox sürətlə sürmək lazımdır. Daha sonra bir neçə dəqiqə hərəkətin sürəti azaldılır. Nəhayət, 20 saniyəyədək pedallar tam güclə işlədilir və birdən hərəkət dayandırılır.

Bu cür hərəkətlər orqanizmdəki bütün hüceyrələri hərəkətə gətirir.



**Həftədə velosipedlə 30 kilometr yol qət etmək ürək xəstəliklərinin yaranma riskini 50% azaldır**

# Naxçıvan-Marağa memarlıq məktəbi

özümüzü tanıyaq

XI əsrdən formalaşmağa başlamış və orta əsrlər Azərbaycan memarlığının üslub xüsusiyyətlərini müəyyənləşdirən bu memarlıq məktəbi Naxçıvan şəhərinin Azərbaycan Atabəylərinin (1136 - 1225) iqamətgahına çevrilməsi nəticəsində yüksəliş dövrünə çatmış, Memar Əcəmi Əbubəkr oğlunun fəaliyyəti ilə Yaxın Şərq memarlığında əhəmiyyətli rol oynamışdır. Memar Əcəminin inkişaf etdirdiyi memarlıq üslubu təkcə Naxçıvanı əhatə etməmiş, Güney Azərbaycanda Marağa şəhərinə, Şimalda Bərdə şəhərinə, Şərqi Anadolu ərazisinə də yayılmış, ümumilikdə Şərq aləmində kompozisiyalı abidələrin yaradılmasına təkan vermişdir.

Naxçıvan-Marağa memarlıq məktəbinin üslub xüsusiyyətlərinin müəyyənləşməsində və nüfuzunun artmasında XII əsrdə Azərbaycanın mədəni həyatındakı ümumi yüksəliş, yerli dövlət hakimiyyətinin möhkəmlənməsi, şəhərlərin iqtisadi vəziyyətinin yaxşılaşması, ölkədə ədəbiyyatın və fəlsəfi fikrin inkişafı, humanizm ideyalarının yayılması mühüm rol oynamışdır.

XII əsrdə Naxçıvan şəhərinin əhəmiyyətinin artması ilə əlaqədar olaraq, burada sənətkarlıq və inşaat xeyli genişlənir. Yerli ənənələr şəhərdə Azərbaycan memarlığı ilə birləşərək özünəxas bir siması olan memarlıq - bədii məktəb yaradır. Naxçıvan-Marağa memarlıq məktəbi dövrün ən mükəmməl inşaat quruluşlarının tətbiqi, binanın texniki quruluşu ilə onun bədii həllinin ahəngdarlığına nail olunması baxımından ən yüksək səviyyəyə qalxmışdı.

Azərbaycan xatirə memarlığının təkamül prosesində Naxçıvan-Marağa memarlıq məktəbinin, xüsusilə bu məktəbin tanınmış nümayəndələri Əcəmi Əbubəkr oğlu Naxçıvani və Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvaninin böyük xidmətləri olmuşdur.



İkiqatlı quruluşu (yeraltı sərdabə və yerüstü qüllə) olan türbələrin üst bölümü silindr, kub və ya prizma biçimli gövdədən ibarət olub ikiqatlı günbəzlə örtülürdü. Əcəmi Naxçıvaninin dövrümüzə kimi gəlib çatmış iki əsəri prizmatik gövdəli türbələrdir. Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani isə yuvarlaq (silindrik) gövdəli türbələr yaratmışdır.

Naxçıvan-Marağa memarlıq məktəbinə məxsus tikililər (Yusif Küseyir oğlu türbəsi, Möminə Xatun türbəsi, Bərdə türbəsi, Qırmızı Günbəd türbəsi, Göy Günbəd türbəsi və sair ümumi quruluşunun abidəviliyi, ayrıntılarının zərifliyi, memarlıq bölgülərinin nikbinlik doğuran görkəmi, ornament bəzəklərinin oynaqlığı ilə səciyyələnir.

Ornamentasiya baxımından Naxçıvan-Marağa memarlıq məktəbi dəqiq riyazi hesablama metodlarına əsaslanır. Abidələr dəqiq hesablama və ölçmələr, planlaşma, yerləşmə, ornamentlərinin və kitabələrinin dəqiq düzülməsi əsasında inşa edilirdi.

Abidələrin modul sistemi, mütənasiblik sxemləri tağların və günbəzlərin quruluşu, səkkizkünc səthlərin dəqiq ölçüsü riyazi hesablamalarsız mümkün deyildi. Bu memarlıq məktəbinin nümayəndələri dərin riyazi bilik sayəsində abidələrin mütənasibliyi, tağ, günbəz, ornament və bəzəklərin mürəkkəb strukturu problemlərini zərgər dəqiqliyi ilə həll etmişlər.

Naxçıvan-Marağa memarlıq məktəbi üçün kərpic hörgüsü, kərpicdən qurașdırılmış inşaat quruluşları, müxtəlif biçimli kərpiclərin məharətlə tətbiqi və kərpicin birrəngli yeknəsəngliyindən uzaqlaşmaq üçün rəngi kaşı və gəc ünsürlərinin memarlıq bəzəyinə daxil edilməsi səciyyəvidir. Binaların kompozisiya və həcm quruluşunda da Naxçıvan memarları ümumşərq memarlığında görkəmli yer tuta bilən üsullar yaradır və tətbiq edirlər. Naxçıvan memarlıq kompozisiyaları üçün monumentallıqla bərabər zəriflik də diqqəti cəlb edən xüsusiyyətdir. Naxçıvan sənətkarlarının həndəsi ornament quruluşu yaratmaq məharətləri və inşaatda ondan çox səmərəli istifadə edilməsi də bu məktəbin daxilində yaradılan memarlıq-inşaat üsullarına daxildir.

Müdriklər deyib ki...

***«Cəsarət - qorxunun yoxluğu deyil, qorxuya müqavimət göstərmək, ona hökm etməkdir».***

***Mark Tven (1835-1910)***

